## Azərbaycana idxal edilən soğan gömrük rüsumundan azad edilib



**Baş (adi) soğan və şalot soğanı (yaşıl soğan, habelə örtülü şəraitdə yetişdirilən və (və ya) faraş soğan istisna olmaqla) idxal gömrük rüsumundan azad edilib.**

Nazirlər Kabineti bununla bağlı müvafiq qərar verib.

Ölkəyə idxal olunan soğan mayın 1-dək gömrük rüsumundan azad olunub. Nazirlər Kabinetinin digər qərarı ilə baş (adi) soğan və şalot soğanı (yaşıl soğan, habelə örtülü şəraitdə yetişdirilən və (və ya) faraş soğan istisna olmaqla) "Azərbaycan Respublikasının gömrük ərazisindən aparılması müvəqqəti olaraq tənzimlənən malların Siyahısı"na daxil edilib.

## Tarif Şurasının səlahiyyətləri artırılıb

**Tarif Şurasının səlahiyyətləri artırılıb. Bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.**

Fərmana əsasən, Tarif şurası tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulmasına (fiziki və ya texnoloji) görə məbləği müəyyən edəcək.

Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulmasına görə qaz qurğusunun istifadəçiləri qaz paylayıcısına Tarif Şurasının müəyyən etdiyi məbləğdə qoşulma xidmətinə görə ödəniş etməlidirlər.

Tarif Şurası ödənişin məbləğini Nazirlər Kabinetinin müəyyən etdiyi metodologiya əsasında müəyyən edəcək.


№ 21 (5782), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 fevral 2023-cü il (şənbə)




## Bütün imkanlar səfərbər olunub

### Bu il Laçın, Şuşa və Zəngilan sakinləri doğma yurda qayıda bilər

**Bu il azad edilmiş hansı ərazilərə sakinlərin geri dönəcəyi açıqlanıb.**

Bu il Laçın şəhəri, Zabux və Sus kəndlərinin, Şuşa və Zəngilan sakinlərinin doğma yurda qayıdışı təmin edilməlidir. Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsin sədri Rövşən Rzayev komitədə keçirilən kollegiya iclasında deyib. O qeyd edib ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar qarşıda mühüm vəzifələr durur.

"Onların tam və vaxtında yerinə yetirilməsi üçün bütün imkanların səfərbər edilib. Ölkə rəhbərinin tapşırığına əsasən, bu il Laçın şəhəri, Zabux və Sus kəndlərinin, Şuşa və Zəngilan sakinlərinin doğma yurda qayıdışı təmin edilməlidir", - deyə o qeyd edib.



## Səfirlikdəki terrorun qarşısını alanlar təltif olundu

**Fevralın 3-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınmasında iştirak etmiş şəxslərin təltif olunması ilə bağlı Sərəncam imzalayıb.**

Sərəncama əsasən, yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə Tağıyev Vasif Natiq oğlu 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunub. Həmçinin Əsgərov Orxan Rizvan oğlu (ölümündən sonra) və İmanov Mahir Kamil oğlu "Vətən uğrunda" medalına layiq görülüblər.

## 1 milyard avro ayırılıb

### Avropa Ukraynanın sürətli bərpasına başlayır



**Avropa Komissiyası Ukraynanın sürətli bərpası üçün 1 milyard avro ayırıb.** "Report"un Şərqi Avropa bürosunun məlumatına görə, bunu Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen bu gün Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə birgə keçirdiyi mətbuat konfransında bildirib.

O, qeyd edib ki, Avropa Komissiyası Ukraynada məktəblərin, xəstəxanaların sürətli bərpasını təmin etmək üçün 1 milyard avro ayırır və artıq prosesi koordinasiya etmək üçün xüsusi katibliyə malikdir: "Rusiya ordusunun infrastruktur obyektlərinə hücumları nəticəsində dağılmış binaların bərpası ilə yanaşı, Ukraynada məktəblər, xəstəxanalar və yollar hələ də bərpa olunmayıb. Buna görə də biz sürətli yeniləmə ilə başlayırıq. Bu, daha əhatəli bərpa prosesinin bir hissəsidir. Bunu təmin etmək üçün ilk 1 milyardın veriləcəyini elan etməyə hazıram. Artıq bizim xüsusi katibliyimiz var ki, o, işləyir və bu prosesləri koordinasiya etməyə başlayır, ona görə də dərhal başlaya bilərik", - AK rəhbəri əlavə edib.

# "Ən azı yüz il kifayət edəcək"

### Prezident İlham Əliyev: "Biz 2027-ci ilədək Avropaya öz qaz ixracımızı iki dəfə artırmağı planlaşdırmışıq"




**"Enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir". Bu fikri Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib.**

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 8-ci iclasından sonra xeyli dəyişikliklərin baş verdiyini vurğulayan Azərbaycan Prezidenti qeyd edib ki, dünya dəyişib, enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir:

"Enerji təhlükəsizliyi, həmçinin milli təhlükəsizlik məsələsidir. Biz yeni marşrutların qurulması və yeni resursların cəlb olunması sahəsində işləyirik. İndi görürük ki, bu, heç vaxt olmadığı qədər vacibdir.

(səh.2)

# Polietilen torbalar pullu olacaq

### Yavaş-yavaş insanları parça torbalardan istifadəyə öyrəşdirmək, izahedici videoçarxlar hazırlamaq lazım idi



**Bakıda marketlərdə alıcılara verilən polietilen torbalar yaxın günlərdə ödənişli olacaq.**

Bununla bağlı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən iri market şəbəkələrinə məktub göndərilib. Məktubda qeyd olunur ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müraciəti əsasında qalınlığı 15-20 mikron olan yüngülçəkili polietilen torbaların nəzarət-kassa aparatlarında ayrıca məhsul növü kimi təqdim edilməsi üçün təcili tədbir görülsün və bunun nəticələri ilə bağlı Dövlət Xidmətinə 5 iş günü ərzində məlumat verilsin.

(səh.4)



## ABŞ kəşfiyyatından yeni proqnoz

### Qarşıdakı 6 ay Ukrayna müharibəsində həlledici olacaq

**"Qarşıdakı 6 ay Rusiyanın Ukraynaya qarşı müharibəsinin yekun nəticəsini müəyyən etmək üçün həlledici olacaq".**

Report xəbər verir ki, bunu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börns deyib. O bildirib ki, Rusiya Prezidenti Vladimir Putin danışıqlar barədə düşünmür: "Qarşıdakı yarım il döyüş meydanında nəticələrlə yadda qalacaq". Qeyd edək ki. U.Börns bu ilin yanvar ayında Kiyevə gizli səfər edib.

*Ukrayna Təhlükəsizlik və Müdafiə Şurasının sədri Oliksiy Danilov söyləmişdi ki, qarşıdakı 1-2 ay müharibənin taleyi üçün həlledici olacaq.*

## Naxçıvanda yeni təyin olunmuş məktəb direktoru işdən azad edilib



**Naxçıvan şəhəri 12 nömrəli tam orta məktəbin direktoru Turan Məmmədli işdən azad olunub.**

APA-nın Naxçıvan bürosu xəbər verir ki, ötən gün yaranan insidentdən sonra bu gün məktəbin müəllimləri dərs keçməyiblər və direktorun işdən azad olması üçün müraciətə müəllimlərin hamısı imza atıb. Etirazlardan sonra Təhsil naziri Rəhman Məmmədov məktəbə gəlib. Bu gün axşam saatlarında isə müəllimlər Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikadakı Səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin qəbulunda olublar. Görüş səmərəli keçirilib.

*Görüşdən sonra fevralın 1-də təyin olunan direktor Turan Məmmədlinin işdən azad olunduğu nazirlik tərəfindən bildirilib.*

## 2 nəfər vəfat edib

### 24 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 24 yeni yoluxma faktı qeydə alınıb, 21 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 828 042 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 817 760 nəfər müalicə olunaraq sağalıb, 10 094 nəfər vəfat edib, aktiv xəstə sayı 188 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 982, hazırkı dövrədək isə 7 493 215 test aparılıb.*



## Qərb açıq-aşkar riyakarlıq etdi

### Saakaşvilinin həbsdə ölməsi indi daha çox Qərbə və ABŞ-yə lazımdır

(səh.3)



## Viruslu uşaqlar məktəbə buraxılmamalıdır

### Xəstələri məktəbdən təcrid etmək, ev şəraitində müalicəsini aparmaq lazımdır

(səh.5)



# “Ən azı yüz il kifayət edəcək"

## Prezident İlham Əliyev: “Biz 2027-ciilədək Avropaya öz qaz ixracımızı iki dəfə artırmağı planlaşdırmışıq”

**“Enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir”. Bu fikri Prezident İlham Əliyev fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib.**

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 8-ci iclasından sonra xeyli dəyişikliklərin baş verdiyini vurğulayan Azərbaycan Prezidenti qeyd edib ki, dünya dəyişib, enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir: ”Enerji təhlükəsizliyi, həmçinin milli təhlükəsizlik məsələsidir. Biz yeni marşrutların qurulması və yeni resursların cəlb olunması sahəsində işləyirik. İndi görürük ki, bu, heç vaxt olmadığı qədər vacibdir. Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında edirik və vaxt itirmədik. Cənub Qaz Dəhlizinin icrasında müəyyən yubanmalar oldu. Lakin bütövlükdə biz çalışdıq ki, onu mümkün qədər tez başa çatdıraq. İndi isə biz artıq onun genişləndirilməsi haqqında danışırıq”.

**“Enerji təchizatımızın davamlı şaxələndirilməsinə hazırıq”**

*Prezident deyib ki, enerji təchizatımızın davamlı şaxələndirilməsinə hazırıq:* ”Cənub Qaz Dəhlizi iki ildən bir az çox vaxt əvvəl istifadəyə verildi. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər, TAP-ın isə 10 milyard 20 milyard kubmetrə qədər genişləndirilməsi haqqında danışırıq. Biz, həmçinin alternativ enerji mənbələrindən danışırıq. Bu, əslində bizim enerji təchizatımızın davamlı şaxələndirilməsinin göstəricisidir. Biz buna hazırıq”.

**“Avropaya qaz ixracımızı artırmaq üçün resurslarımız, qarşılıqlı siyasi iradəmiz var”**

*Dövlət başçısı qeyd edib ki, Avropaya qaz ixracımızı artırmaq üçün resurslarımız, qarşılıqlı siyasi iradəmiz və yüksək səviyyədə etimadımız var:* ”Ötən il vacib bir hadisə oldu və bu, bizim enerji təhlükəsizliyi sahəsində ümumi öhdəliyimizi nümayiş etdirir”. Ötən il iyulun 18-də Bakıda Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen ilə birgə imzaladıqları ”Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun əhəmiyyətini xüsusi vurğulayan dövlət başçısı bildirib ki, bu, əslində, bizim gələcək planlarımız üçün açıq yol xəritəsidir: ”Biz 2027-ci ilədək Avropaya öz qaz ixracımızı iki dəfə artırmağı planlaşdırmışıq. Bu, mümkündür, çünki bizim resurslarımız, qarşılıqlı siyasi iradəmiz və çox yüksək səviyyədə etimadımız var”.

**“Biz qaz təchizatının artırılması ilə bağlı əlavə imkanların yaradılması haqqında düşünürük”**

*Prezident vurğulayıb ki, qaz təchizatının artırılması ilə bağlı əlavə imkanların yaradılması haqqında düşünülür:* ”Azərbaycan qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyası ilə Anlaşma Memorandumunun imzalanmasından sonra fəal şəkildə əlavə imkanların yaradılması haqqında düşündü. Hazırda biz bu il yeni yataqlardan məhz hasilatı gözləyirik və mövcud ”Şahdəniz” yatağında hasilatın artırılması birmənalı olaraq gündəlikdədir. Biz həmçinin daxildə enerji səmərəliliyi haqqında düşünürük. Biz itkilərin azaldılması proqramı üzərində çalışırıq”.

*Prezident deyib ki, təbii qaz ehtiyatlarımız bizim və tərəfdaşlarımız üçün ən azı yüz il kifayət edəcək:* ”Bu gün biz, əlbəttə ki, gələcəyə doğru baxırıq, yaşıl enerji ilə bağlı Məşvərət Şurası yaranıb. Cəmi dörd ölkə var və heyət kifayət qədər kiçikdir. Lakin onun böyüməsi potensialı var. Nəinki hökumətlər, o cümlədən şirkətlər də belə mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər”.

**“Biz nəinki qaz hasilatını və ixracını artırırıq, onun coğrafiyasını da genişləndiririk”**

**Dövlət başçısı bildirib ki, nəinki qaz hasilatını və ixracını artırır, onun coğrafiyasını da genişləndiririk:** ”Bizim təbii qaz ixracımız artır. İxracımız 2021-ci ildə təxminən 19 milyard, ötən il 22,6 milyard kubmetr olub. Bu il isə 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu göstərir ki, Avropa Komissiyası ilə imzaladığımız Anlaşma Memorandumu uğurla həyata keçirilir. Biz nəinki hasilatı, o cümlədən ixracı artıracağıq və onun coğrafiyasını genişləndiririk. Əminəm ki, bu gün layihəyə qoşulmuş ölkələr bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin biz digər interkonnektorlarla Avropada daha çox ölkəni layihəyə qoşa biləcəyik”.

**“Məşvərət Şurasının iclasında ilk olaraq konseptual məsələlər həll edilməlidir”**

*Ölkə rəhbəri qeyd edib ki, Məşvərət Şurasının iclasında ilk olaraq konseptual məsələlər həll edilməlidir:* ”Öz fəaliyyətimizi necə quracağıq, hər bir ölkənin öhdəlikləri necə olacaq, özəl şirkətlər buraya necə qoşula bilər. Bu, konsorsium şirkətlərin konsorsiumu olacaq və yaxud hər ölkə öz ərazisində üzərinə düşən işləri icra edəcək. Bu məsələlər barədə razılığın əldə olunmasının vacibliyini xüsusi qeyd edən dövlət başçısı bildirib: ”Burada Azərbaycanın quruda və dənizdə bərpaolunan enerji resurslarından enerjinin alınması, həmin enerjinin Gürcüstanla sərhədə nəql edilməsi, bundan əlavə, Qara dənizin dibi ilə kabelin çəkilməsi məsələsi də durur. Ona görə biz planlarımızı müvafiq qaydada strukturlaşdırmalıyıq və baxmalıyıq ki, kim potensial qaydada investor rolunu oynaya bilər. Əlbəttə, beynəlxalq maliyyə təsisatları ilə də əməkdaşlıq qurmalıyıq”.

**“500 meqavatlıq günəş enerjisi stansiyasının tikilməsinə dair danışıqlar aparırıq”**

*Prezident bəyan edib ki, 500 meqavatlıq günəş enerjisi stansiyasının tikilməsinə dair danışıqlar aparılır:* ”Azərbaycanda yaşıl enerji potensialı çox böyükdür. Bu artıq təsdiq olunub”. Təkcə Xəzər dənizində külək enerjisi potensialının 157 qiqavat olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: ”Quruda isə külək və günəş enerjisi potensialı 27 qiqavatdır. İki il əvvəl Vətən müharibəsi nəticəsində işğaldan azad etdiyimiz ərazilərdə külək və günəş enerjisi potensialı 10 qiqavatdan çoxdur. Biz Naxçıvan Muxtar Respublikasında da böyük potensial müəyyən etmişik. Hazırda biz 500 meqavatlıq günəş enerjisi stansiyasının tikilməsinə dair danışıqlar aparırıq”.

**“Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjinin son nöqtəsi olmayacaq”**

*Prezident Rumıniya və Macarıstanın yaşıl enerjinin son nöqtəsi olmayacağına əminlik ifadə edib:* ”Bərpaolunan enerji bizim planlarımızın bir hissəsidir. Üç əsas enerji şirkəti ilə razılaşdıq və anlaşma memorandumu imzaladıq ki, biz 25 qiqavat həcmində bərpaolunan enerji resursları əsasında həm quruda, həm dənizdə külək və günəş enerjisi istehsal edək. Bu, çox böyük potensialdır”. Qara dənizin dibi ilə kabelin çəkilməsi barədə işlərin planlaşdırılmasının da önəmini vurğulayan dövlət başçısı bildirib: ”Bu da Avropadakı tələbatla əlaqələndirilməlidir. Beləliklə, biz potensial əməkdaşlığımızı Avropa qitəsində görəcəyik. Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjinin son nöqtəsi olmayacaq”.

**“Qarşıdakı illərdə milyardlarla kubmetr təbii qaza qənaət edəcəyik”**

*Azərbaycan Prezidenti deyib ki, qarşıdakı illərdə milyardlarla kubmetr təbii qaza qənaət edəcəyik:* ”Bu gün biz Azərbaycanda ”Masdar” və ”ACWA Power” kimi investorlarla birgə iki investisiya layihəsini həyata keçiririk. Bu, günəş və külək enerjisinin istehsalına aiddir. Onların ümumi gücü 470 meqavatdır. Maliyyə təsisatları ilə məhsuldar əməkdaşlığımızı bərpaolunan enerji sahəsində də davam etdirəcəyik. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və digər maliyyə qurumları bizimlədir. Ümid edirik ki, məhsuldar əməkdaşlığımızı bərpaolunan enerji sahəsində də davam etdirəcəyik”.

**İsmayıl**

# Laçın yolunda sülhməramlılara məxsus 58 avtomobil maneəsiz hərəkət edib



**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 3 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

”Report”un aksiya keçirilən ərazidəki əməkdaşı xəbər verir ki, toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub.

Belə ki, 1 yük maşını Xankəndidən Laçın istiqamətinə, digər 2 yük maşını isə Laçından Xankəndi istiqamətinə maneəsiz hərəkət ediblər. Xankəndi istiqamətinə hərəkət edən yük maşınlarından birində texniki nasazlıq olduğundan o, qarşıda hərəkət edən nəqliyyat vasitəsinə qoşulu olub. Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Bununla da gün ərzində Xankəndi-Laçın yolunda hər iki istiqamətdə maneəsiz hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 58-ə çatıb.

# Rumıniya Prezidenti Bakıya böyük ümidlə gəlib

## Təbii qaz ehtiyatlarımız bizim və tərəfdaşlarımız üçün böyük şansdır



**”Rumıniya Prezidentinin Azərbaycana rəsmi səfərinin aparıcı ideyası fevralın 3-də keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarıdır”.**

Bunu ”Şərq”ə beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi fikirlərə diqqət çəkib: ”Ölkə başçısı deyib ki, təbii qaz ehtiyatlarımız bizim və tərəfdaşlarımız üçün ən azı yüz il kifayət edəcək. Hazırda Avropada enerji təhlükəsizliyi ilə bağlı ciddi problemlər müşahidə edilməkdədir. İndiki məqamda Azərbaycan Avropa Birliyi (Aİ) xətti ilə Avropanın əsas enerji təchizatçılarından biridir. Bu mənada balkan ölkələri, eyni zamanda tərəfdaş kimi sözügedən iclaslarda iştirak edən Rumıniya Azərbaycanla enerji sazişi imzalamağın arxasınca gəlib.

Bununla Klaus Yohannisin əsas məqsədi öz ölkəsinin enerji təhlükəsizliyində Azərbaycanın böyük rol oynamasına nail olmaqdır. Bu gün həm pandemiyadan sonra, həm də xüsusilə, ikinci qlobal fırtına dönəmində (Rusiya-Ukrayna müharibəsi) ölkələrin iqtisadi artıma ehtiyacları, təhlükəsizlik qayğıları, dayanıqlı inkişaf problemləri, iqlim dəyişikliyi kimi ciddi problemlər var. Bütün bunları karbohidrogen resurslarının istehsalçısı olan Azərbaycanın sayəsində müəyyən dərəcədə həll etməyə çalışırlar. Bildiyimiz kimi, haqqında danışdığımız ölkənin şərqində Qara dəniz yerləşir. Əminəm ki, Türkiyə ilə yanaşı, Qara dəniz hövzəsi ölkələrinin - Rumıniya, Bolqarıstan, İon dənizi üzərindən Yunanıstan, İtaliya, həmçinin Şərqi və Mərkəzi Avropaya doğru Çexiya, Macarıstan ölkələri bu qəbildən olan tərəfdaşlardır. Heç şübhəsiz ki, Cənub Qaz Dəhlizinin Azərbaycanın enerji siyasətində ən vacib yeri tutması və beynəlxalq enerji layihəsi hesab edilməsi Rumıniya Prezidentini Bakıya gətirən səbəblərdəndir”.

*Qeyd edək ki, Rumıniya Prezidenti Klaus Yohannis fevralın 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Azərbaycanın və Rumıniyanın dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Rumıniya Prezidenti Klaus Yohannisi hava limanında Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşılayıblar.*

**Sücayət Mehti**

# Avropa ən etibarlı bazardır

## Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb

**Fevralın 3-də Bakıda, ”Gülüstan” sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub. Artıq doqquzuncu dəfə təşkil olunan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının keçirilməsi, eləcə də Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının baş tutması Azərbaycanın Avropanın enerji təminatında artan rolunu açıq şəkildə ortaya qoyur.**

İqtisadi inkişafını durmadan şaxələndirərək genişləndirən Azərbaycan, bununla da, Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi işində əhəmiyyətli addım atıb. Prezident İlham Əliyevin həyata keçirdiyi yeni enerji siyasətinin bu baxımdan iki əsas komponentini xüsusi vurğulamaq lazımdır. Ötən ilin fevralında Rusiya-Ukrayna müharibəsinin başlaması digər sahələrdən fərqli olaraq, enerji təminatı sahəsində vəziyyəti xüsusilə kəskinləşdirdi. Rusiyaya qarşı bir sıra sanksiyalar tətbiq etməyə başlayan Avropa özünün enerji təminatı üçün alternativ mənbələrə üz tutdu. Bu istiqamətdə ötən il iyulun 18-də Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında “Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nun imzalanması xüsusi əhəmiyyət daşıyır.

Həmin sənədi Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar. Xüsusilə vurğulamaq lazımdır ki, artıq həmin sənədin icrasına başlanıb. Qeyd edək ki, 2021-ci ildə Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil edirdisə, 2022-ci ildə bu rəqəm 11,3 milyard kubmetr olub. Cari ildə isə onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. 2023-cü ildə Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün 2021-ci ildə bu rəqəm 19 milyard kubmetr təşkil edirdi. Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var. Xüsusi vurğulamaq lazımdır ki, Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb. Bu nəhəng layihə ilə bağlı ilk sənəd - Azərbaycan ilə Avropa Komissiyası arasında





Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə 2011-ci ildə imzalanıb. Bu, həmin layihənin icrasının başlanğıc mərhələsi sayılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il oktyabrın 29-da imzaladığı Sərəncam ilə “Cənub Qaz Dəhlizi” layihəsi çərçivəsində Azərbaycanın mənafeyini qorumaq və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə Dövlət Komissiyası yaradılıb. 2014-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin iyirmi illiyində Səngəçalda Cənub-Şərqi Avropa ölkələrinin dövlət və hökumət başçılarının, nazirlərinin və beynəlxalq şirkətlərin rəhbərlərinin iştirakı ilə “Cənub Qaz Dəhlizi” layihəsinin təməlqoyma mərasimi keçirilib. Azərbaycan strateji əhəmiyyət daşıyan Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı, səhmdarı və ev sahibinə çevrilib. Bu təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan, sonrakı dövrdə İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya qoşulub. Hazırda yeni və potensial tərəfdaşlar arasında Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da yer alıb.

**Millət vəkili Vüqar Bayramov deyib ki, Cənub Qaz Dəhlizi nəinki region, bütün Avropa üçün ən vacib təşəbbüslərdən sayılır. Deputat bildirib ki, Cənub Qaz Dəhlizinin reallaşması Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub:** ”Builki iclas tamamilə fərqli dövrə təsadüf edir. Rusiya-Ukrayna müharibəsinin davam etməsi, Avropada enerji böhranının dərinləşməsi və regionda diversifikasiyanın daha da prioritetləşdiyi dövrdə bu iclas genişmiqyaslı coğrafiyada enerji istiqamətlərinin müəyyənləşdirilməsinə təsir edəcək. Digər tərəfdən, Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu artmaqdadır. Ötən il Azərbaycanın Avropaya qaz ixracatı 39 faiz artıb. Bütövlükdə son 2 ildə Azərbaycan Avropa İttifaqına 20 milyard kub metrdən çox qaz ixrac edib.

Ötən ilin iyul ayında Avropa Komissiyası ilə təchizatı iki dəfə artırmaq üçün Anlaşma Memorandumu imzalandığını nəzərə alsaq, bunun üçün qarşıdakı dövrdə istismara verilməsi planlaşdırılan “Abşeron”, “Ümid”, “Asiman”, “Şəfəq” və “Babək” kimi qaz yataqlarının işlənməsi üçün yeni sərmayələrin cəlbi də prioritet olaraq qalmaqdadır. TAP kəməri vasitəsilə Avropaya ikinci mərhələdə 20 milyard qaz nəql ediləcək. Bütövlükdə, CQD-nin ötürmə qabiliyyətinin 32 milyard kubmetrə çatdırılması imkanı var. Cənub Qaz Dəhlizi Azərbaycanın regional mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradır. Gələcək illərdə bu layihə region və qitə üçün əhəmiyyətli olmaqda davam edəcək”.

**İsmayıl**



# Böhranı Azərbaycan çözür

## Enerji sahəsində əməkdaşlıq Avropaya da stabillik gətirəcək

**“Cənub Qaz Dəhlizi özünün Avropanın enerji təhlükəsizliyi üçün strateji vacibliyini sübut edib. Hazırda bu dəhliz həmişəkindən daha vacibdir”. Bunu Rumıniya Prezidenti Klaus Yohannis fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında deyib. Rumıniya dövlət başçısının sözlərinə görə, Rusiyanın Ukraynaya qarşı müharibəsindən sonra geosiyasi vəziyyət dəyişib:**

”Avropa İttifaqı və üzv ölkələr enerji resursları istiqamətində alternativlərə üz tutub. Bu mənbələrdən biri də Azərbaycandır və Azərbaycan etibarlı tərəfdaşdır”. Rumıniya dövlət başçısı xatırladıb ki, Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlığın əsası 2009-cu ildə qoyulub: ”2022-ci ildə biz enerji sahəsində görünməmiş çətinliklərlə üzləşdik. Bu çətinliklərə cavab vermək üçün Aİ hərtərəfli addımlar atıb. Azərbaycandan idxal olunan qaz regionumuzun bütün ölkələrinin enerji təchizatına stabillik gətirib. Biz Azərbaycanın və Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni qiymətləndiririk. Biz Xəzər dənizindən daha çox təbii qazın hasil edilməsində maraqlı olaraq qalırıq”.

**“Avropanın enerji təhlükəsizliyinə dəyərli töhfə verəcəyik”**

*Rumıniya dövlət başçısı deyib ki, ölkəsi həm enerji istehsalı üçün mövcud potensialından istifadə etməklə, həm də transsərhəd enerji nəqliyyatı infrastrukturu vasitəsilə regionda enerji əməkdaşlığını təşviq etmək öhdəliyinə sadiqdir:* ”Bu baxımdan mühüm nümunə Prezident İlham Əliyevin 2022-ci il dekabrın 17-də Buxarestə səfəri zamanı imzalanmış Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və təchizatı sahəsində Strateji Tərəfdaşlıq Sazişidir. Müqaviləyə əsasən, Qara dənizdə yaşıl elektrik enerjisi üçün sualtı kabeli inkişaf etdirəcəyik, Avropanın enerji təhlükəsizliyinə dəyərli töhfə verəcəyik. Avropa İttifaqı ilə onun üzvü olan dövlətlər, digər tərəfdən isə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq strateji prioritetə malikdir və bazar məntiqi bunu tələb edir. İcazə verin, ölkəmin ümumi çağırışlara, xüsusən də ümumi enerji təhlükəsizliyimizə davamlı həll yollarını tapmaq istiqamətində regional əməkdaşlığa güclü və davamlı sadiqliyimizə sizi əmin edim”.

**“CQD-nin həm Aİ, həm də Azərbaycan üçün vacib rolu var”**

Avropa İttifaqının (Aİ) enerji komissarı Kadri Simson deyib ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 9-cu iclası mürəkkəb bir dövrə - qlobal inkişafın risk altında olduğu və enerji təhlükəsizliyinin diqqət mərkəzinə düşdüyü bir dövrə təsadüf edir. Kadri Simson bildirib ki, Məşvərət Şurasının bu iclası Aİ, Azərbaycan və digər tərəfdaşların enerji böhranına cavab vermək və stabillik üçün birgə əməkdaşlıq etdiklərini göstərmək üçün bir fürsətdir. Aİ Komissarı Kadri Simsonun sözlərinə görə, Aİ və Azərbaycan arasında çox uğurlu əməkdaşlıq mövcuddur. O əlavə edib ki, Aİ və Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq barədə memorandum Cənub Qaz Dəhlizinin həm Aİ, həm də Azərbaycan üçün vacib rolu olduğunu göstərir. O, bu dəhliz vasitəsilə qaz həcminin artdığını xatırladaraq vurğulayıb ki, bu həcmin artması Avropa enerji resurslarının diversifikasiyasına, qaz tədarükünün stabilliyinə və təhlükəsizliyinə ciddi töhfə verib.

**“Azərbaycanın Aİ-yə bərpaolunan enerji ixracı üçün potensialı var”**

*Kadri Simson vurğulayıb ki, Azərbaycanın Aİ-yə bərpaolunan enerji ixracı üçün potensialı var:* ”Azərbaycandan Aİ-yə qaz tədarükü artıb. Bu, bizim Azərbaycanla artan diplomatik əlaqələrimizlə də üst-üstə düşür. Mövcud böhranı fürsətə çevirmək üçün qarşılıqlı qətiyyət var. Həmçinin bu əməkdaşlığımızın bizi gələcəkdə hansı nöqtəyə gətirəcəyinə də diqqət etməliyik. Qarşıdakı onilliklərdə təbii qaz Avropanın enerji keçidində vacib rol oynayacaq”, - Aİ-nin enerji komissarı bildirib. Simson əlavə edib ki, CQD Aİ-yə boru kəməri vasitəsilə çatdırılan sabit və rəqabətədavamlı qaz mənbələrindən biri olaraq qalacaq. Onun sözlərinə görə, bu, həmçinin Xəzər regionundakı digər ölkələr üçün də bir fürsət yaradır ki, bu layihəyə qoşulsunlar. O, Aİ-nin bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıq marağından da danışıb. Aİ-nin enerji komissarı Azərbaycanın külək enerjisi sahəsində potensialını vurğulayıb: ”Azərbaycanın Aİ-yə bərpaolunan enerji və hidrogen enerjisi ixrac edən ölkə olmaq potensialı var. Bizim ”EU fior Energy” proqramı artıq bu istiqamətdə Azərbaycana dəstək verir. Biz texnologiya və özəl sərmayə təqdim edirik”.

**“ABŞ Azərbaycanla əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək niyyətindədir”**

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxman deyib ki, ABŞ Azərbaycanla əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək niyyətindədir. Bildirib ki, Prezident Cozef Bayden Xəzər dənizindən Avropaya qaz ixracı məsələsini dəstəkləyir. ABŞ Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyini təmin etmək üçün Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək: ”Cənub Qaz Dəhlizi Avropa üçün çox əhəmiyyətli layihədir və Azərbaycan qitənin enerji təhlükəsizliyinin təmin olunmasında aparıcı rola malikdir. Lakin Cənub Qaz Dəhlizi Avropanın yalnız enerji deyil, siyasi təhlükəsizliyinin də möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Bu layihə bir çox ölkənin əməkdaşlığına imkanlar yaradır ki, bu imkandan istifadə iqtisadi artımı təmin edir. ABŞ Xəzər dənizində hasil olunan təbii qazın Avropaya nəql olunmasını bundan sonra da dəstəkləyəcək və Azərbaycana yardım edəcək”. Xanım Laura Loxman onu da qeyd edib ki, dünyada ekoloji problemləri nəzərə alan ABŞ Azərbaycanda yaşıl enerji istehsalına və ixracına sərmayə yatıra bilər.

**“Əgər ”Türk axını” çəkilməsəydi, bu gün çox ciddi problemlərlə üzləşərdik”**

Macarıstanın xarici işlər naziri Peter Siyarto bildirib ki, Macarıstan dənizə çıxışı olmayan bir dövlət kimi enerji təchizatında, o cümlədən bu sahəyə lazımi sərmayələri yatırmaq məsələsində qonşu və digər tranzit ölkələrdən çox asılıdır. O, hökumətinin enerji təchizatına həmişə siyasi və ya ideoloji deyil, fiziki bir məsələ kimi baxdığını qeyd edib: ”Enerji təhlükəsizliyi bizim üçün milli təhlükəsizlik məsələsidir və hökumət indiyə qədər etdiyi kimi bu sahəyə hər hansı müdaxilə cəhdini qətiyyətlə rədd etməyə davam edəcək”. Siyarto Macarıstanın enerji təchizatının bu gün də təhlükəsiz olduğuna inandığını deyərək, bunun ”böyük ölçüdə hələ də yüz faiz gücü ilə işləyən ”Türk axını” qaz kəməri” ilə bağlı olduğunu vurğulayıb. O, bəzi şəxslərin bir zamanlar kəmərin çəkilməsinə mane olmağa çalışaraq sanksiya hədələri etdiyini, lakin layihənin iştirakçı ölkələrin cəsarətli qərarları sayəsində reallaşdığını xatırladıb: ”Əgər biz bu kəməri çəkməsəydik, bu gün çox ciddi problemlərlə üzləşərdik”.

**İsmayıl**

# Qərb açıq-aşkar riyakarlıq etdi

## Saakaşvilinin həbsdə ölməsi indi daha çox Qərbə və ABŞ-yə lazımdır





**”Qafqaza müasir Qərb demokratiyasının cəlbedici nümunəsini gətirmiş sabiq Gürcüstan Prezidenti Saakaşvilinin həbsxanadan yayılmış növbəti ürəkparçalayıcı görüntüləri Qərbin yalan vədlərinə inanaraq ölkəsinin maraqlarını təmin edə biləcəyini düşünən bütün siyasətçilərə bir dərs, ibrət olmalıdır!”.**

*Bu sözləri Ədalət Partiyasının sədr müavini, politoloq Elxan Şükürlü feysbuk səhifəsində yazıb. Partiya təmsilçisi qeyd edib ki, indi çoxları Saakaşvilinin bu hala düşməsini onun çılğın və emosional qafqazlı xarakterinə bağlayaraq, əsas təqsiri Rusiya Prezidenti Putində görürlər:* ”Gerçəklik budur ki, Saakaşvili həm də Qərbin pərdəarxası sövdələşmələr üzərində qurulmuş riyakar siyasətinin gözlər önündə can verən qurbanıdır. Doğrudanmı, hesab edirsiniz ki, bir gün içərisində öz sərhədlərindən minlərlə kilometr uzaqlıqda yerləşmiş ölkələrə qondarma bəhanələrlə qoşun yeridən, milyonlarla günahsız insanı qətlə yetirən ABŞ, NATO Saakaşvilinin azadlığa buraxılması üçün ciddi bir əsas tapa bilmir?! Gürcüstan hakimiyyətinə və məhkəmələrinə hər hansı təsir göstərə, yaxud onun müalicəsini təşkil edə bilmir?! Deməli, Saakaşvilinin həbsdə olması, hətta orada ölməsi hər kəsdən daha çox, indi elə Qərbə - ABŞ və Avropaya lazımdır!”.

**E.Şükürlü vurğulayıb ki, hər məhkəmə prosesində Ukrayna ilə bağlı hansısa mesajları çatdırmağa çalışan Saakaşvili Qərblə Rusiya arasında növbəti sövdələşmə məkanının Ukrayna, qurbanlığın da Zelenski olacağını ən yaxşı bilən siyasətçilərdəndir:** ”Görünür, bütün dünyanı Saakaşvilinin müdafiəsinə çağıran Zelenski də artıq bunu anlayıb. Məlumatı olmayanlara xatırladım ki, Saakaşvili 2019-cu ilin avqustunda Rusiya-Gürcüstan savaşı haqda ”Institute for War and Peace Reporting”-in müxbiri Vaje Tavberidzeyə müsahibəsində ən böyük səhvinin Qərbə həddən artıq inanmasının olduğunu demişdi və Qərbi açıq-aşkar riyakarlıqda, Rusiya ilə pərdəarxası sövdələşmədə ittiham etmişdi”.

**İsmayıl**

# Daha 35 manatlıq menyuları görə bilməyəcəyik

## Şadlıq sarayları müştəri azalmasını qiymət artımı ilə kompensasiya etməyə çalışırlar

**Pandemiya şadlıq sarayları sektoruna əməllicə ziyan vurdu. Şadlıq sarayları hələ də özünə gələ bilmir və itirilmiş gəlirlərini qiymətləri qaldırmaqda görürlər. Bu üsul isə deyəsən, daha da ziyana işləyir. Çünki şadlıq saraylarına üz tutanların sayında xeyli azalma var.**



İqtisadi və Sosial İnkişaf Mərkəzindən ”Trend”ə verilən məlumata görə, 2022-ci ildə şadlıq saraylarında sifarişlərin sayı 2021-ci ilin sərt karantin qaydaları tətbiq olunmayan dövrünə nisbətən 43.0 faiz azalıb. Bununla yanaşı, şadlıq saraylarında 2022-ci ildə qiymətlər 21.6 faiz artıb. Xüsusən, 40 manatadək olan menyularda qiymət daha çox artıb: 27.5 faiz. Dəyəri 40-80 mant olan menyuların qiyməti 20.1 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 17.4 faiz artım qeydə alınıb.

Qiymət bahalığı əhalini şadlıq saraylarından yan ötməyə vadar edir. Ümumi qiymət artımları fonunda insanlar gündəlik və zəruri ehtiyacların qarşılanmasına daha çox önəm verir. Bu, məlum məsələdir. Bu səbəbdən də əhali toy mərasimlərini bahalı şadlıq saraylarında təşkil etmək fikrindən daşınırlar. Həm də bu yanaşma ilə ki, onsuz da demək olar şadlıq sarayları eyni menyu təklif edir. Bir-iki fərq nəzərə alınmazsa, şadlıq saraylarında eyni toy formatı düzənlənir. Sadəcə, əvvəldən özünü ”bərkgedən” şadlıq sarayı kimi təqdim etmiş yerlər var ki, ”bərkgedənlər” də onlara üz tutur. Orta hesabla isə əhali üçün şadlıq sarayının adı, ”imici” önəmli deyil, valideynləri, qudaları toyun zərərlə, yaxud xeyirlə başa çatacağı düşündürür. Buna görə də bahalı menyu təklif edən şadlıq saraylarına yaxın durmurlar. Bu da şadlıq saraylarına sifarişlərin azaldığına dair məlum statistikanın ortaya çıxmasına səbəb olur.

**Sosioloq Ağa Salamov ”Şərq” açıqlamasında şadlıq sarayları ilə bağlı belə bir mənzərənin ortaya çıxmasının səbəblərini göstərdi:**

- Bundan sonra şadlıq saraylarında 25-35 manatlıq menyuları görə bilməyəcəyik. Çünki bu, sahibkara sərf etməyəcək. Dünənədək quzu ətinin kiloqramını 8-9 manata alan şadlıq sarayı inzibatçısı indi 16 manata alır. Elə şadlıq sarayları var ki, keyfiyyətli ətə üstünlük verir və bununla tanınırlar. Amma qiymət iki dəfə bahalaşıb. Keyfiyyətli ət yeməkləri də artıq baha qiymətə təklif olunur. Toyuq əti 3-3.50 qəpiyə idi, indi 5 manatdır. Toyuq əti də bahalaşıb. Qarnirlərdə, salatlarda istifadə olunan ərzaqlar - yumurta, kartof, mayonez, tərəvəzlər, digər ərzaqlar düyü, yağ... hamısının qiymətində artım baş verib. 200 qramlıq toyuq əti 70-80 qəpiyə başa gəlirdisə, indi 1 manat 20 qəpiyə başa gəlir. Yəni toy menyusunun maya dəyərində artım var və şadlıq sarayları da qiymətləri qaldırmaq məcburiyyətindədir. Hələ bu ərzaqların daşınma xərcləri də artıb, çünki benzinin qiyməti qalxıb. Bunlar hamısı menyuların tərtib edilməsinə və qiymət dəyişikliyinə səbəb olur. Sahibkar baha aldığı məhsulu ucuz qiymətə satası deyil. Üstəlik, burada salonun bəzədilməsi, dekorasiyalar, işçilərin əməkhaqqı da var və bunlar hamısı ümumi hesaba vurulanda qiymət artımı qaçılmaz olur.

***A.Salamov şadlıq saraylarına sifarişlərin də ötən dövrlə müqayisədə azalmasının səbəbini qiymət artımı ilə əsaslandırdı:***

- Şadlıq sarayları qiymətləri qaldırırsa, əhalinin aztəminatlı təbəqəsi, əlbəttə, bu xidmətlərdən istədiyi kimi yararlana bilməyəcək. Optimal düşünən insanlar pullarını şadlıq sarayındakı 4 saatlıq məclisə sərf etmək istəmir, nisbətən ucuz, əlçatan qiymətlər təklif edən məkanları seçirlər. Müştəri azlığı da bir tərəfdən şadlıq saraylarını qiyməti qaldırmağa sövq edir. Ötən dövrlərdə ayın az qala bütün günləri əvvəlcədən bron edilirdisə, indi vəziyyət fərqlidir. Şadlıq sarayları müştəri ”ovuna” çıxır. Müştəri azalmasını qiymət artımı ilə kompensasiya etməyə çalışırlar. Amma qiymətləri ucuzlaşdıra bilmirlər, çünki maya dəyəri yüksəkdir. Heç nəylə qiymət artımını kompensasiya edə bilmirlər.

**Məlahət Rzayeva**

# Diplomatların geri çağırılması Türkiyəyə təzyiq metodudur

## Seçki öncəsi belə hadisələr çoxalacaq, Ərdoğanın seçilməsinə mane olmaq istəyirlər

**Türkiyədə terror aktları təhlükəsi bəhanəsi ilə bəzi ölkələr konsulluqlarının işini dayandırmaq qərarına gəliblər. Aralarında ABŞ, İngiltərə, Almaniya və Fransanın olduğu 9 dövlət İstanbuldakı baş konsulluqlarının fəaliyyətini müvəqqəti donduraraq Türkiyədə olan vətəndaşlarına xəbərdarlıq ediblər. Qərardan sonra 9 ölkənin səfirləri Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb.**



Səfirlərə Ankaranın məsələyə münasibəti çatdırılıb və Türkiyədəki bütün diplomatik nümayəndəliklərin təhlükəsizliyinin beynəlxalq müqavilələr əsasında qorunduğu vurğulanıb. Bu cür yanaşmaların yalnız terror təşkilatlarının məkrli gündəminə xidmət etdiyi vurğulanıb. Dost və müttəfiq ölkələrdən Türkiyənin təhlükəsizlik qüvvələri ilə əməkdaşlığı gözləməyin vacibliyi bildirilib. Türkiyənin daxili işlər naziri Süleyman Soylu ABŞ-nin terror aktları təhlükəsi ilə bağlı bəyanatları fonunda bir sıra Avropa ölkələrinin İstanbuldakı konsulluqlarını bağlamasını ölkəyə qarşı ”psixoloji müharibə” adlandırıb. Xarici işlər naziri Mövlud Çavuşoğlu da bildirib ki, konsulluqların bağlanılması məqsədlidir. O, Türkiyənin məsələ ilə bağlı xəbərdarlıq etdiyini və bunun cavabsız qalmayacağını qeyd edib.

**Türkiyənin yenidən hədəf alınmasını ”Şərq”ə dəyərləndirən Azad Vətən Partiyasının sədri Akif Nağı deyib ki, 2023-cü ildən qardaş ölkə üçün bütün sahələrdə yeni mərhələ başlayır. Xüsusən, siyasi və hərbi cəhətdən qardaş ölkə yüksək inkişaf dövrünü yaşayır:** ”Yüz il öncə imzalanmış Lozan konfransının məhdudiyyətləri aradan qaldırılır. Türkiyə həm regionda, həm dünyada ciddi aktora çevrilməkdədir. Əlbəttə, baş verənlər Qərb ölkələrini ciddi narahat edir. Güclü və əli uzun Türkiyə ABŞ və Avropanın maraqları üçün təhdid kimi dəyərləndirilir. Çalışırlar ki, Türkiyənin daha da güclənməsinə, söz sahibi olmasına imkan verməsinlər. Əslində, Türkiyəyə qarşı sərgilənən düşmən mövqe dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla, onun yeritdiyi müstəqil siyasətlə bağlıdır. Türk dünyasında tarixi şəxsiyyətlərin rolu danılmazdır. Əksər Qərb ölkələri və beynəlxalq siyasi dairələr üçün Ərdoğanın hakimiyyət başında qalması arzuolunan deyil. Türkiyədə daxili gərginlik yaratmaq, iqtidara problemlər yaratmaq məqsədilə ardıcıl addımlar atırlar. İsveç, Hollandiya, Danimarkada ”Qurani-Kərim”in yandırılması, təhqir olunması da birbaşa Türkiyənin hədəf seçilməsi idi. ”Quran”ı yandırmaq taktikası ilə çirkin məqsədlərinə nail ola bilməyən dairələr konsulluqları əsassız bağlamaqla prosesi körükləyirlər”.

*A.Nağı hesab edir ki, diplomatik nümayəndələrin geri çağırılması Türkiyəyə növbəti təzyiq metodudur:* ”Qardaş ölkədə ab-havanı dəyişməyə, gərginləşdirməyə cəhd edirlər. Seçki öncəsi belə hadisələr çoxalacaq. Nəyin bahasına olursa-olsun, Ərdoğanın seçilməsinə mane olmağa çalışırlar. Türkiyədəki müttəfiqlərini hakimiyyətə gətirməyə cəhd göstərirlər. Ancaq Ərdoğan və məsləkdaşlarının, onlara dəstək verən milliyətçilərin ciddi qüvvə olduğunu unudurlar. Müxalifət və xaricdəki dəstəkçiləri Türkiyə üçün ”sürprizlər” hazırlayırlar. Amma Ərdoğanın da öz planları var. Əksər hallarda Qərbin Türkiyə hakimiyyətinə qarşı tətbiq etdiyi təzyiqlər, layihələr Ərdoğana ziyan vurmur, əksinə, onun reytinqini daha da artırır. Konsulluq layihəsi də Qərb ölkələrinin özlərinə zərər verəcək”.

**İsmayıl Qocayev**



mövcud olmadığı üçün biz marketlərdə müxtəlif qiymətlər görəcəyik: "Amma bir məsələ var ki, sözügedən qərarla bağlı niyyət bəllidir. Uzun müddətdir dünyada ekologiya ilə bağlı polietilen torbalardan imtina edilir. Qonşu ölkələrdə bəzi hallarda polietilen torbalar qadağan edilib, bəzi hallarda isə pul ilə satılır. Yəni polietilen torbaları pul ilə satmaqda məqsəd qazanc əldə etmək deyil. Pulla satılan zaman bu torbalara tələbatın azalacağına ümid edilir. Ancaq burada zamana ehtiyac var ki, insanların davranış qaydası dəyişsin. Ona görə də Azərbaycan bu

# Polietilen torbalar pullu olacaq

## Yavaş-yavaş insanları parça torbalardan istifadəyə öyrəşdirmək, izahedici videoçarxlar hazırlamaq lazım idi

**Bakıda marketlərdə alıcılara verilən polietilen torbalar yaxın günlərdə ödənişli olacaq.**

**Bununla bağlı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən iri market şəbəkələrinə məktub göndərilib. Məktubda qeyd olunur ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müraciəti əsasında qalınlığı 15-20 mikron olan yüngülçəkili polietilen torbaların nəzarət-kassa aparatlarında ayrıca məhsul növü kimi təqdim edilməsi üçün təcili tədbir görülsün və bunun nəticələri ilə bağlı Dövlət Xidmətinə 5 iş günü ərzində məlumat verilsin.**

Market şəbəkələri onlara belə məktub göndərildiyini və hazırda pərakəndə satış sektorunun bununla bağlı hazırlıqlara başladığını bildiriblər. Məlum olub ki, şirkətlərə fevralın 15-dək vaxt verilib və tapşırılıb ki, bununla bağlı hazırlıq görülsün. Polietilen torbaların satış qiymətlərinə gəlincə, bununla bağlı vahid məbləğ müəyyən olunmayıb. Bunu hər şirkət özü təyin edəcək.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirildi ki, Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli Qərarı ilə "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"na dəyişiklik edilib.

Dəyişikliyə əsasən, ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin

> "Zamana ehtiyac var, 10 illərlə insanlarda formalaşmış bir ənənəni bir günün içində dəyişdirmək mümkün deyil"

göstərilməsi zamanı istehlakçılar tərəfindən malların və məhsulların daşınması üçün nəzərdə tutulan qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngülçəkili polietilen torbalar istehlakçılara ayrıca məhsul növü kimi təqdim edilməlidir. Satış qiyməti barədə istehlakçıya əvvəlcədən məlumat verilməlidir.

**İqtisadçı-ekspert Natiq Cəfərli isə "Şərq"ə açıqlamasında deyib ki, selofan torbaların qiymətinin dövlət tərəfindən təyin olunma mexanizmi**

torbaların ödənişli satışına keçməzdən əvvəl bu istiqamətdə təşviq addımları atılmalı, maarifləndirmə işləri aparılmalı idi. 10 illərlə insanlarda formalaşmış bir ənənəni bir günün içində dəyişdirmək mümkün deyil.

Yavaş-yavaş insanları parça torbalardan istifadəyə öyrəşdirmək, izahedici videoçarxlar hazırlamaq lazım idi. Məsələn, Avropa ölkələrində müxtəlif aksiyalar həyata keçirilir. Məsələn, bir müddət iri marketlərin qarşısında pulsuz parça torbalar paylanılır. Bizdə də belə aksiyaların təşkilinə ehtiyac var. Lakin polietilen torbalara alternativ üçün mağazalar öz xərclərini artırmaq istəmirlər. Heç olmasa, dövlətin dəstəyi, müəyyən vergi güzəştləri ilə iri şirkətlər bu cür kampaniyalar keçirə bilərdi".

Bu torbaların 5-10 qəpik civarında satılacağını vurğulayan ekspert hesab edir ki, məbləğ bir o qədər böyük olmadığı üçün bu yolla insanların polietilen torbalardan istifadəsini azaltmaq real görünmür. 5 qəpiyə görə heç kəs marketə cibində torbayla gəlməyəcək. Təşviq addımları atılmalıdır ki, insanların buna münasibəti dəyişsin.

Şəymən

# "Ərdoğanın qalib olmasını istəyirik"

## Arzuxan Əlizadə: "Altılı masa" Qərb güclərinə xidmət edir"



"Milli maraqlarımız da bizi ona yönəldir ki, Türkiyədə hakimiyyətdə olan partiya ilə əlaqələrimizi mümkün qədər möhkəmləndirək"

**Türkiyədə 2023-cü ilin iyun ayında keçirilməsi planlaşdırılan prezident və parlament seçkilərinin 14 may tarixində keçirilməsi qərara alınıb. Prezident seçkiləri ilə bağlı hələlik bir namizədin adı ictimaiyyətə məlumdur. O da hakim "Cümhur İttifaqı"nı təşkil edən Ədalət və İnkişaf Partiyası (AKP) və Milliyyətçi Hərəkat Partiyasının (MHP) dəstəklədiyi indiki Prezident Rəcəb Tayyib Ərdoğandır.** "Altılı masa" kimi bilinən müxalifət blokunun namizədi isə hələ ki məlum deyil. Ən iddialı şəxs Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğludur. Lakin onun daha əvvəl bir neçə dəfə Ərdoğana uduzmuş olması, xalqın mühafizəkar hissəsində reytinqinin aşağı olması və "gənc, dinamik, xarizmatik" lider sayılmaması müxaliflərin ona etimadını azaldan faktorlardır. İYİ Partiyanın sədri Maral Akşenerin reytinqi yüksək olsa da, o, daha əvvəl prezidentlik üçün yarışmayacağını, yalnız hakimiyyət dəyişikliyindən sonra parlament üsul-idarəsinə qayıdılanda baş nazirliyə namizəd olacağını bəyan edib. DEVA Partiyasının sədri Əli Babacan namizədlik üçün iddia ilə çıxış etsə də, müxalif seçicinin gözündə keçmiş AKP-li nazir olması faktoru onu ən az populyar edən amildir. Hazırda müxalifətin vahid namizədi kimi seçicilərin ən çox istədiyi İYİ Partiyanın açıq-aşkar dəstəyini elan etdiyi şəxs İstanbul bələdiyyə sədri Əkrəm İmamoğludur. Seçkilərin əhəmiyyətli müzakirə predmetlərindən biri də Ərdoğanın namizədlik məsələsi idi. Bəzi hüquqşünaslar budəfəki namizədliyin qeyri-konstitusional olacağını iddia edirlər. Lakin əksər hüquqşünaslar bildirirlər ki, 2017-ci ildə ölkə parlament üsul-idarəsindən prezident üsul-idarəsinə keçdiyinə görə, Ərdoğanın növbəti dəfə namizəd olmasına hüquqi əngəl yoxdur.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyə qardaş ölkə olduğuna görə, orada baş verən siyasi proseslər bizim üçün də maraqlıdır. Partiya rəhbəri qeyd edib ki, Azərbaycan ictimaiyyəti Türkiyədəki seçki prosesini diqqətlə izləyir:** "Xüsusən, 44 günlük müharibə və ondan sonra regionda baş verən proseslər fonunda Türkiyədə keçiriləcək seçkinin nəticələri bizim üçün daha da önəm kəsb edir. Çünki Türkiyədəki seçkinin nəticələrinin həm Azərbaycana, həm də bölgədə yaşanan proseslərə ciddi təsiri olacaq. Reallıq odur ki, indiki Prezident, hörmətli Rəcəb Tayyib Ərdoğan Azərbaycana əvvəlki dönəmlə müqayisədə daha çox diqqət və maraq göstərib. Məhz onun rəhbərliyi dönəmində Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək səviyyəsinə çatıb. Ölkəmizə qarşı təhdidlərdə, təzyiqlərdə Türkiyə daha qətiyyətli şəkildə yanımızda olub. Kritik məqamlarda bizi dəstəkləyən ilk dövlət qardaş Türkiyə olub və Ərdoğanın burada rolu danılmazdır. Etiraf etmək lazımdır ki, Ərdoğan qlobal miqyaslı dünya siyasətçisinə çevrilib və paralel olaraq Türkiyənin də mövqeyini gücləndirib. Türkiyənin siyasi-iqtisadi və ən əsası hərbi baxımdan güclənməsi birbaşa Ərdoğanın adı ilə bağlıdır. Türk dünyasının möhkəmlənməsində də onun səyləri göz önündədir. Düzdür, Türkiyədə iqtisadi sıxıntılar, çətinliklər də var və bunu heç kim inkar etmir. Qlobal iqtisadi böhran, bahalaşma Türkiyəyə təsirsiz ötüşə bilməz. Ancaq bütün bunlara rəğmən, Türkiyə tərəqqi yolundadır. Ən mühümü odur ki, ölkə müstəqil siyasət yürüdür və heç bir siyasi-maddi gücdən asılılığı yoxdur. Əslində Qərbi narahat edən də bu məqamdır. Açıq-gizli yollarla Türkiyə və onun başındakı şəxs hədəf alınır".

**A.Əlizadə qeyd edib ki, Türkiyə müxalifətinə etimad çox azdır:** "Arxalarında xarici dairələrin dayandığı aydın şəkildə ortadadır. "Altılı masa" adlanan müxalifət öz addımları ilə Türkiyəni təsir dairəsinə salmağa çalışan Qərb güclərinə xidmət edir. Biz birmənalı olaraq Ərdoğanın növbəti seçkidə qalib olmasını, prezident seçilməsini istəyirik. Hətta bunu çox ciddi surətdə arzulayırıq. Düşünürük ki, 14 may seçkiləri sadəcə Türkiyə üçün deyil, Azərbaycan və bütövlükdə region, türk dünyası üçün çox önəmlidir".

*Partiya sədri rəhbərlik etdiyi AMİP-in Türkiyənin Milliyyətçi Hərəkat Partiyası və hakim AKP ilə əlaqələrinin olduğunu söyləyib:* "Ancaq hesab edirik ki, həmin partiyalarla münasibətlərimiz qaneedici səviyyədə deyil. Əslində bu məsələ ağrılı yerimizdir. Ələlxüsus, istərdik ki, Azərbaycandakı müxalifət partiyaları hakim AKP ilə daha sıx əməkdaşlıq içində olsun. Ümumən isə AMİP olaraq partiya mövqelərindən daha çox dövlətçilik mövqelərinə üstünlük veririk. Milli maraqlarımız da bizi ona yönəldir ki, Türkiyədə hakimiyyətdə olan partiya ilə əlaqələrimizi mümkün qədər möhkəmləndirək".

İsmayıl Qocayev

# Media reyestri qanunla tənzimlənir

## Etirazçıların çıxışları xaricdən qrant layihələrinin alınmasına hesablanıb



**2021-ci il dekabrın 30-da "Media haqqında" yeni qanun qüvvəyə minib. Qanunun müvafiq tələblərinə uyğun olaraq, ötən ilin oktyabrından etibarən media subyektlərinin və jurnalistlərin 6 ay müddətində reyestrdən keçməsi tələb olunur. 6 ay ərzində reyestrdə qeydiyyatdan keçmək üçün müraciət etməyən media subyektlərinin işinin qanuniliyinə məhkəmədə baxılacaq.**

Məsələnin gündəmə gəlməsindən sonra ölkəmizdə fəaliyyət göstərən bütün ciddi mətbu orqanlar bu istiqamətdə aktiv çalışmalara başlayıblar. Qanunauyğun formada, jurnalistikanın prinsiplərinə uyğun xəbər siyasəti aparan bütün ciddi media subyektləri reyestrin olmasını müsbət hesab edirlər. Lakin son günlərdə vəziyyətdən narahat olanlar əl-ayağa düşüblər. Görünür, media reyestri üçün ayrılan vaxtın daralması onların daha aktiv formada əks-təbliğata, qara piar kampaniyasına başlamasına səbəb olub. Əvvəlcədən qeyd olunub ki, jurnalistlərin reyestrə düşməsi könüllü, media subyektinin reyestrdən keçməsi isə məcburidir. Ona görə də öz peşəsinə məsuliyyətlə yanaşan, qanunlara və işinə hörmət edən bütün media qurumları və çalışanları reyestrdən keçmək üçün müvafiq tələbləri yerinə yetirməyə çalışırlar. Digər qism isə çıxış yolunu kor-koranə şəkildə "icazəli media istəmirik" kampaniyasına qoşulmaqda görməyə başlayıb.

***Media eksperti Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında bildirib ki, Media Reyestrinin ləğv olunmasını tələb edən qondarma "hüquqşünasların", "media ekspertlərinin" ötən dövrlərdəki fəaliyyətlərini təhlil etsək görərik ki, onlar bu cür mövzular üzərində həmişə manipulyasiya ediblər.*** *Qarşılığında maddi qazanc götürüblər. Ekspertə görə, onların bütün çıxışları xaricdən qrant layihələrinin alınmasına hesablanıb:* "Məsələ ondadır ki, Azərbaycanda mübahisəli hüquqi mövzuların Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) müstəvisinə çıxarılması üçün xüsusi layihə icra olunur. Layihə siyasi məqsədlidir. Məhkəməyə göndərilən işlərin kəmiyyətcə çoxalması nəticə etibarilə həm də ölkəmizə qarşı siyasi təzyiqlər üçün əsas yaradır. Məsələn, Avropa təsisatlarında məskunlaşmış "ermeni lobbi qrupları" indi bir tezis üzərində xüsusi dayanırlar. Deyirlər ki, "Azərbaycan qeyri-demokratik ölkə olduğu üçün Qarabağ ermənilərini bu dövlətin tərkibində yaşaya bilməzlər". Ruben Vardanyan da xarici KİV-ə verdiyi bütün müsahibələrində bu tezisi təkrarlayır. Həmin tezisi əsaslandırmaq üçün istinad edilən mənbələrdən biri də AİHM-ə Azərbaycandan göndərilən işlərin "kəmiyyətcə çoxalmasıdır". Azərbaycandan məhkəməyə göndərilən, insan haqları pozuntusunu ehtiva edən məsələlər kəmiyyətcə çoxalırsa, bu, "erməni şəbəkəsinə" Azərbaycanı tənqid etmək üçün əsas yaradır. Bu səbəbdən də onlar Azərbaycanda mübahisəli hüquqi məsələlərin AİHM müstəvisinə çıxarılmasını ehtiva edən layihələrin ayrılması üçün lobbiçilik edirlər. Layihə icraçılarından olan "hüquqşünasların" və "media ekspertlərinin" açıqlamalarından görünür ki, Media Reyestri ilə bağlı məsələni də beynəlxalq məhkəmə müstəvisinə çıxarmağa hazırlaşırlar. Problem həm də ondadır ki, bu qrupda təmsil olunanlar AİHM-ə göndərilən iddiaların kəmiyyətini süni şəkildə çoxaldırlar. Məsələn, Media Reyestrində qeydə düşə bilməyən KİV subyektlərinə, jurnalistlərə müraciət edirlər. Onları yerli məhkəmələrə müraciət etməyə həvəsləndirirlər. Xərclərini də qrant layihəsi çərçivəsində ödəyirlər. Yerli məhkəmələrdə hüquqları tanınmayacaqsa, işi beynəlxalq məhkəmə müstəvisinə çıxaracaqlar. Onlar əmindirlər ki, yerli məhkəmələr bu KİV-ə bəraət qazandırmayacaqlar. Yaxşı bilirlər ki, Media Reyestrinə düşə bilməyən KİV-in sənədlərində problemlər mövcuddur. Əgər problem olmasaydı, Reyestr Xidməti onları qeydə alardı".

*M.Ələsgərli vurğulayıb ki, "hüquqşünaslar" və "media ekspertləri" bu nüansdan sui-istifadə edirlər:* "Onlar Reyestrdə qeydə alınmamış KİV-ə öz sənədlərini qaydaya salmaq üçün gerçək dəstək vermirlər. Əksinə, belə KİV-ə dəstək verirlər ki, məhkəmələrə məhz öz qüsurlu sənədləri ilə getsinlər. Orada uduzsunlar. Təbii ki, məhkəmələr bu saytların sənədlərindəki qüsurları görüb onları haqsız sayacaq. Beləliklə, şərait yaranacaq ki, "hüquqşünaslar" işi AİHM müstəvisinə çıxarsınlar. Bu proses "hüquqşünaslar" və "media ekspertləri" üçün sadəcə yem mənbəyidir. Nə qədər çox işi hazırlayıb məhkəmə müstəvisinə çıxarırlarsa, bir o qədər çox qrant layihəsi, qonorar alacaqlar. Siyasi tərəflərini, milli maraqlar üçün yaratdığı fəsadları isə düşünmürlər. Qeyd etmək zəruridir ki, Azərbaycan məhkəmələrində süni şəkildə uduzdurulmuş işlərin AİHM müstəvisinə çıxarılması üçün layihələr məqsədli şəkildə artırılır. Qarabağ danışıqlarının intensivləşdiyi, dünyanın diqqət mərkəzində olduğu bir zamanda belə süni problemlərin yaradılması erməni lobbi qruplarının işinə yarayır".

İsmayıl

# Paşinyan hökuməti erməni cəmiyyətini sülhə hazırlamır

## Ermənistan öz istəyi ilə heç bir siyasi razılaşmaya razı olmayacaq

**"Ermənistanda 3 milyona yaxın erməni yaşayır və biz Qarabağdakı ermənilər naminə əhalimizi riskə ata bilmərik". Bunu Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasının deputatı Qurgen Arsenyan deyib. Erməni deputatın sözlərinə görə, xalq 2021-ci ildə keçirilmiş seçkilərlə hazırkı müxalifət barəsində hökm çıxarıb:**



"Qarabağda baş verənləri manipulyasiya etmək sizə Ermənistanda hakimiyyətə gəlmək imkanı verməyəcək, bunu unudun". Arsenyan əmin olduğunu bildirib ki, Türkiyə ilə münasibətlərin normallaşdırılması ölkəsinin milli maraqlarından irəli gəlir. O qeyd edib ki, qorxu və nifrət dolu ifadələr səsləndirməkdən çəkinmək lazımdır, çünki bu tip çıxışlar yalnız ziyan vurur. Arsenyanın açıqlamaları söz davasına səbəb olub, müxaliflər onun çıxışına imkan verməyiblər.

**Erməni deputatın çıxışını "Şərq"ə dəyərləndirən politoloq Azər Qasımov deyib ki, Paşinyanın komandası milyarder Ruben Vardanyanın Qarabağa niyə gəldiyini yaxşı bilir. Analitik bildirib ki, Rusiyanın Vardanyanı Paşinyanın yerinə alternativ hazırladığını anlayırlar:** "Vardanyan Qarabağdan müharibə anonsu verəndə Paşinyanın dəstəsi sülh mesajları verir. Belə çağırışlar həmişə olub. Hesab edirəm ki, bu bəyanatlar oyunun tərkib hissəsidir. Əslində nə Paşinyanın dəstəsi, nə də Vardanyan Qarabağdan vaz keçmək fikrindədir. Sadəcə vaxt qazanmaq üçün oyun oynayırlar. Guya biri razıdır, digər isə yox, beləcə prosesi uzadırlar. Paşinyan hökuməti erməni cəmiyyətini sülhə hazırlamır. Çünki sülh mesajları ardıcıl verilsə də, sonra bunun əksi davranışlar sərgiləyir. Məhz buna görə də müharibədən keçən iki ildə sülh müqaviləsi bağlamaq mümkün olmur".

*A.Qasımov hesab edir ki, Ermənistan öz istəyi ilə heç bir siyasi razılaşmaya razı olmayacaq:* "Bu, sadəcə sülh məsələsi olsaydı, bəlkə çoxdan nəticə almaq olardı. Ancaq bu, Ermənistanın, erməni cəmiyyətinin və xaricdəki lobbinin "ideoloji silahı"dır. Bu "silah" erməni cəmiyyətini ayaqda və birlikdə saxlayan əsas ideologiyadır. Zənn edirlər ki, sülh bu ideologiyanın sonu olacaq. Nəticədə erməni cəmiyyəti deqradasiyaya uğrayacaq. Azərbaycan Ermənistanın bu "silahını" əlindən almalıdır".

İsmayıl Qocayev



# Heydər Əliyev fenomeni

## Dünya liderləri böyük şəxsiyyət haqqında dəyərli fikirlər səsləndirib

**Tarixin yaddaşında əbədi iz qoymaq hər siyasi xadimin, dövlət başçısının taleyinə yazılan xoşbəxtlik deyil. Bütün həyatını xalqının işıqlı gələcəyinə, Azərbaycanının çiçəklənməsinə həsr etmiş böyük insan, dahi şəxsiyyət Heydər Əliyevi tarixdə əbədiləşdirən, ilk növbədə, onun Vətəninə, xalqına, milli-mənəvi dəyərlərinə - dilinə, mədəniyyətinə və ədəbiyyatına olan hüdudsuz sevgisidir. Həmçinin onların qorunması və tərəqqisi uğrunda bütün dönəmlərdə apardığı taleyüklü mücadilələr, cəsarətli addımlar, Azərbaycanın bu günü naminə həyata keçirdiyi misilsiz və möhtəşəm layihələrdir. Azərbaycanın müasir tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.**

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda həyatın axarını dəyişib. Çoxəsrlik dövlətçilik tariximizdə dahi şəxsiyyət Heydər Əliyevin öz yeri, öz dəst-xətti var. Dünya tarixinin nadir şəxsiyyətlərindən biri olan bu böyük insan sözün həqiqi mənasında təkcə öz xalqının deyil, ümumən bəşəriyyətin tərəqqisi yönündə böyük xidmətlər göstərən bir dahi idi. Azərbaycanın 34 illik dövrü məhz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Tarixə xalqımızın ümummilli lideri kimi daxil olmuş bu əvəzolunmaz insan ölkəmiz üçün çox vacib olan bir sərvət - azərbaycançılıq ideologiyasını yaratdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ilk növbədə ölkədə siyasi sabitliyin yaradılmasına böyük diqqət verirdi. Bu, respublikamızın inkişaf etdirilməsi, dövlət quruculuğu sahəsindəki islahatlarının həyata keçirilməsi üçün ilkin şərt idi. Milli öndərimiz Heydər Əliyev gənc, müstəqil dövlətimizi demokratik inkişaf yoluna doğru istiqamətləndirdi. Qısa bir zaman ərzində dövlət quruculuğu sahəsində böyük irəliləyişlər əldə olundu. Demokratiyanın inkişaf etməsi ilə insan hüquq və azadlıqlarının qorunması, milli şüurun yüksəldilməsi sahəsində mühüm dəyişikliklər baş verdi. Ölkə başçısı kimi fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev dövlət quruculuğu prosesini demokratik prinsiplər əsasında qurdu. O, Azərbaycanı müstəqil, demokratik, hüquqi, dünyəvi vətəndaş cəmiyyətinə əsaslanan qüdrətli bir dövlətə çevirmək üçün gecə-gündüz yorulmadan gərgin fəaliyyətə başladı. Ulu Öndərimiz milli-mənəvi dəyərlərimizin, irsimizin qorunub saxlanmasını, daha da inkişaf etdirilməsini vacib məsələ kimi irəli sürdü və bu təməl üzərində yeni, müasir Azərbaycan yaratdı. O, mənəvi zənginliyi xalqın ən böyük sərvəti hesab edir, xalqımızın intellektual səviyyəsinin yüksəldilməsinə xüsusi əhəmiyyət verirdi. Ona görə də Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə elm və təhsilin müxtəlif sahələrini əhatə edən böyük ziyalı ordusu yetişdi. Mənsub olduğu xalq qarşısında Heydər Əliyevin böyük xidmətlərindən biri də Azərbaycan mədəniyyətini, milli-mənəvi irsini yaşadıb təbliğ etdirmək və onun üzərində müasir mədəniyyətimizin inkişafına nail olunmasıdır. Milli-mənəvi və bəşəri dəyərlərin ən ali prinsiplərini ardıcıllıqla zənginləşdirən Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri ölçüyəgəlməzdir. Onun iradəsi, qətiyyəti, zəngin idarəçilik təcrübəsi, Vətənin azadlığı və müstəqilliyi uğrunda apardığı gərgin mübarizə nəticəsində ölkədə ictimai-siyasi sabitlik, əmin-amanlıq bərqərar olub, demokratik-hüquqi dövlət quruculuğunda sanballı nailiyyətlər qazanılıb. Bütün Azərbaycan vətəndaşları yeni əsrin başlanğıcında belə bir həqiqəti tam dərk etdilər ki, ölkəmizdə milli tərəqqinin 30 ildən artıq bir mərhələsi milli mənafeyi hər şeydən üstün tutan zəmanəmizin böyük siyasi və dövlət xadimi, milli dövlət quruculuğumuzun memarı Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin yaratdığı fəlsəfi konsepsiyaların qayəsi Azərbaycanın müasir dünyada yerini və gələcəyini müəyyənləşdirməkdən ibarətdir. Bugünkü müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir. Sevinirik ki, Ulu Öndərimizin siyasi kursu bu gün Prezident İlham Əliyevin titanik səyi və rəhbərliyi ilə uğurla davam edirilir. Son illər ölkəmiz daha sürətli inkişaf mərhələsinə qədəm qoyub. İqtisadi inkişaf tempinə görə dünyada lider mövqeyindədir.

Heydər Əliyev dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. XX əsrin 90-cı illərində Azərbaycanın beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi Heydər Əliyevə görə tanıyırdılar. Onun parlaq dühası və iti zəkası sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşırdı. Çoxları bizə qibtə edirdi ki, Heydər Əliyev kimi liderimiz var. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Heydər Əliyev dünya səviyyəsində tanınan və qəbul edilən siyasətçi idi. Təsadüfi deyil ki, dünya liderləri və nüfuzlu rəsmi şəxslər Heydər Əliyev haqda maraqlı fikirləri ilə yadda qalıb. Dünya liderlərinin, tanınmış dövlət adamları və siyasi xadimlərinin, məşhur yazıçıların dediklərinə nəzər salarkən qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır. Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi yenidən göz önündə canlanır. Azərbaycan xalqının Ulu Öndərinə verilən bu yüksək qiymətin əsasında təkcə öz Vətəni və xalqı üçün gördüyü işlər deyil, zəmanəsinin çağırışlarına çevik reaksiyası, bəşəri idealları, dünyada dostluğa, sülh və tərəqqiyə verdiyi töhfələr dayanır. Məhz ona görə dünya liderləri Heydər Əliyevi siyasət nəhəngi, nadir istedad sahibi, tarixi və əfsanəvi şəxsiyyət adlandırır, ona bəslədikləri böyük hörmət hisslərini dilə gətirirdilər.

**Amerika Birləşmiş Ştatlarının keçmiş Prezidenti Corc Buş:** "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olub. Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşıyıb. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olub. Eyni zamanda onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynayıb. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırıb və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaradıb".

**Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyr:** "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu".

**Böyük Britaniyanın keçmiş kraliçası II Elizabet:** "Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olub. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram".

Sabiq Roma Papası II İohan Pavel: "Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutdu. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm".

**Rusiyanın Prezidenti Vladimir Putin:** "Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndirirdik. O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi. Mən ona, sadəcə, böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim".

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan:** "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq".

**Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl:** "Mənim Heydər Əliyevə böyük sevgim, hörmətim və ehtiramım var. Bunun kökündə onun insani xüsusiyyətləri, Azərbaycan millətinə, xalqına xidmətləri, Azərbaycan dövləti, müstəqilliyi naminə gördüyü işlər durur. Mənim tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir, bir o qədər də türk vətənpərvəridir. Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin xidməti sayəsində yaradılıb. Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələlərdən biri də möhkəm sabitlikdir. Atəşkəsə nail olunaraq, ölkənin digər işləri ilə məşğul olmaq imkanı yaradıldı. Daxili sabitlik bərqərar edildi, iqtisadi inkişaf, quruculuq işləri başlandı. Hörmətli Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri məhz bu ölkədə sabitliyin, asayişin bərqərar olunmasıdır. Bu, asan iş deyildi. Heydər Əliyevə qarşı sui-qəsdlər hazırlanırdı. Ancaq Azərbaycan xalqı üçün, mənim qardaşlarım üçün ən vacib olanı müstəqil dövlətin yüksələn bayrağıdır. Yüksələn bayraq enməz! Azərbaycanın müstəqilliyi güclüdür, əbədidir".

**Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadze:** "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək. Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə beynəlxalq aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin "polad iradəli Əliyev" yazdığı kimi, o, həqiqətən də, polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlib, bir çox çətinliklərə sinə gərərək, Azərbaycanı böhranlı vəziyyətdən xilas edib. Azərbaycan xalqının əsl xoşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi, böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdü".

**Türkiyənin sabiq Prezidenti Abdullah Gül:** "Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir".

**Türkiyənin keçmiş Prezidenti Əhməd Necdət Sezər:** "Heydər Əliyevi şəxsən tanıdığıma görə şərəf hissi keçirirəm. Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaq".

**Almaniyanın sabiq federal kansleri Gerard Şröder:** "Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirib. Onun adı ölkəsinin müstəqilliyinin bərqərar olması, qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaq".

**Qazaxıstanın sabiq Prezidenti Nursultan Nazarbayev:** "Görkəmli siyasi xadim, çox dərin zəkaya və heyranedici cazibə qüvvəsinə malik insan - Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdü".

**Özbəkistanın sabiq Prezidenti İslam Kərimov:** "Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir".

**İsmayıl**

# Gürcüstan lazımi məqamı gözləyir

## Tbilisi Kremli hiddətləndirib vəziyyəti Saakaşvili dövrünə qaytarmaq istəmir



**ABŞ Dövlət Departamenti Gürcüstan hökumətinə xəbərdarlıq edib. Vaşinqton Rusiya və Gürcüstan arasında birbaşa uçuşların bərpasının əleyhinə olduğunu açıqlayıb. Vurğulanıb ki, Gürcüstan və Rusiya arasında birbaşa uçuşların bərpa olunması Gürcüstan hava limanlarında Rusiya şirkətlərinə xidmət edən şirkətləri sanksiyalar təhdidi altında qoyacaq. Qeyd olunub ki, hazırda ABŞ da daxil olmaqla bir sıra Qərb ölkələri Rusiya təyyarələrinin öz hava məkanlarına daxil olmasını qadağan edib və belə bir vəziyyətdə birbaşa uçuşların davam etdirilməsi narahatlıq doğurardı:**

"Bütün Qərb qəddar rejimlə özü arasında məsafə qoyub, indi Rusiya ilə əlaqələri artırmağın vaxtı deyil". Məlumat üçün bildirək ki, Gürcüstanın hakim "Gürcü Arzusu" Partiyasının sədri İrakli Kobaxidze Rusiya ilə birbaşa uçuşların bərpasının mümkünlüyünü və bunun Gürcüstan vətəndaşları üçün faydalı ola biləcəyini deyib. O, Rusiya tərəfinin belə bir qərarının alqışlana biləcəyini qeyd edib. Gürcüstan Prezidenti Salome Zurabişbili isə birbaşa uçuşların davam etdirilməsinin əleyhinə olduğunu bəyan edib. Rusiya və Gürcüstan arasında birbaşa uçuşlar 2019-cu ilin yayında Tbilisidə keçirilən Rusiya əleyhinə aksiyalardan sonra Rusiya Prezidenti Vladimir Putinin göstərişi ilə dayandırılıb.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Qərb Tbilisiyə münasibətdə ehtiyatlı davranır. Analitikin fikrincə, indi Qərbin diqqəti digər münaqişə və problemlərin həllinə yönəlib:** "Digər tərəfdən, Tbilisi ilə Qərb arasında ciddi problemlər də mövcuddur. Tbilisi bəzən Qərbin maraqlarını nəzərə almır. Sabiq Prezident Mixeil Saakaşvili ilə bağlı məsələ də Qərbə qarşı demarş kimi dəyərləndirilir. Belə siyasətin nəticəsidir ki, Gürcüstanın Qərbə inteqrasiya məsələsi Ukrayna və Moldova ilə müqayisədə bir qədər arxaya atılıb. Hazırda Tbilisinin həm Rusiya, həm də Qərblə münasibətlərində yaranmış vəziyyət olduqca qarışıqdır. Unutmaq olmaz ki, bu gün Gürcüstan ərazisinin 20 faizi Rusiya işğalı altındadır. Rusiya ölkənin iki regionunu - Abxaziya və Cənubi Osetiyanı işğal edib".

**A.Rəşidoğlunun sözlərinə görə, rəsmi Tbilisinin üzü Qərbədir:** "Tbilisi istəsə belə, Avrointeqrasiyadan uzaqlaşa bilməz. Sadəcə olaraq, Gürcüstan Kremli qıcıqlandırmaq, münasibətləri Qamsaxurdiya və yaxud Saakaşvili dövrünə qaytarmaq istəmir. Moskva Ukraynada ciddi zərbə alacağı təqdirdə Tbilisi yenidən anti-Rusiya mövqeyinə qayıdacaq. Hazırda Tbilisi Rusiya ilə açıq qarşıdurmaya getmək istəmir, lazımi məqamı gözləyir. Bunu Qərbdə də anlayırlar, odur ki, Tbilisiyə daha artıq təzyiq etmək istəmirlər".

**İsmayıl Qocayev**



# Viruslu uşaqlar məktəbə buraxılmamalıdır

## Xəstələri məktəbdən təcrid etmək, ev şəraitində müalicəsini aparmaq lazımdır

**Son günlər ölkəmizdə burun axması, boğaz ağrısı, halsızlıq və hərarətin yüksəlməsi ilə müşayiət olunan virus epidemiyası yayılıb.**

**Bundan ən çox əziyyət çəkən isə uşaqlar olur. Viruslar xüsusilə bağçalarda, məktəblərdə uşaqlar arasında sürətlə yayılır. Bir çox hallarda isə valideynlər azyaşlıların bağçaya, məktəbə gedən kimi virusa yoluxduqlarını, bu halın tez-tez təkrarlandığını, sağalma prosesinin isə çox uzun çəkdiyini vurğulayırlar.**

Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov mediaya açıqlamasında bildirib ki, mövcud vəziyyətdə əgər hər hansı şagird xəstədirsə, onun müalicəsi ev şəraitində aparılmalıdır: "Kəskin respirator xəstəliklərin çoxaldığı vaxtda bu, başadüşüləndir və üzrlü səbəbdir. Əsas məsələ şagirdlərin sağlamlığıdır. Əgər hər hansı şagird qripə və ya yoluxucu xəstəliyə tutulubsa, onun evdə qalması və müalicəsini davam etdirməsi vacibdir. Xəstə şagirdin məktəbə getməsinə ehtiyac yoxdur. Bu məsələdə valideynlərə tövsiyəmiz də budur ki, övladlarını qızdırmalı və ya xəstə halda məktəblərə göndərməsinlər. Əgər şagird xəstə halda məktəbə gəlirsə, təhsil ocağının rəhbərliyi bununla bağlı qərar qəbul etməlidir. Bununla əlaqədar məktəblərdə qaydalar və müvafiq qərarlar da mövcuddur".

Bununla belə, valideynlərin məsələ bağlı razılaşmadığı bəzi məqamlar var. Belə ki, onlar bildirirlər ki, bəzi hallarda uşaqlarını sağalmamış məktəbə göndərməli olurlar. Müəllimlər zəng edir ki, yoxlama gəlir, davamiyyət aşağı olmamalıdır. Ya da uşaq bir ayda dəfələrlə xəstələnib, müəllim də hər dəfə arayış istəyir. Hər dəfə 15-20 manat poliklinikaya verməyə imkanlarının olmadığını vurğulayan valideynlər bu səbəbdən uşaq tam sağalmamış məktəbə göndərməli olurlar.

**Həkim-infeksionist Nicat Əzimlinin sözlərinə görə, respirator sinsitial virus daha çox azyaşlılarda, məktəb yaşlı, bağça yaşında uşaqlarda çox görüldüyü üçün bu uşaqların məktəb və bağçalara xəstə halda dərsə getməsi digər uşaqların da bu virusa yoluxması təhlükəsini artırır:** "Yoluxmuş uşaqlar tam sağalmayana kimi heç bir kollektivə daxil olmamalıdır. Bəzi məktəblərdə səhər yoxlanışı zamanı xəstəlik aşkarladığı şagirdi məktəbə və ya bağçaya buraxmır. Ancaq bu hal bütün məktəblərdə eyni cür olmalıdır. Valideyn öz məsuliyyətini dərk edib övladını məktəbə göndərməməlidir. Məktəb isə xəstə şagirdi qəbul etməməlidir.

Ona görə də xəstə olan uşaqları məktəbdən təcrid etmək, yəni ev şəraitində təcrid edərək müalicəsini aparmaq lazımdır. Müalicəsi asan olan, sağalan xəstəlikdir. Lakin dediyim kimi, yoluxma baş verməsin deyə uşaqların ev şəraitində müalicə olunması daha məqsədəuyğun hesab olunur. Eyni ilə də qrip və koronavirus, bu, həmçinin uşaqlarda, həm də böyüklərdə yüksək yoluxuculuq xüsusiyyətləri olan və simptomatik xəstəliklər törədən viruslardır. Təbii ki, xəstə şəxsin özünü təcrid etməsi ən güclü mühafizə sayılır".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi**



# Startaplar ölkəmizdə sahibkarlıq fəaliyyətini daha da canlandıracaq

## Bu sahə ölkəmizin iqtisadi inkişafına və insanların məşğulluğuna öz töhfəsini verəcək

**Dünya iqtisadiyyatındakı son tendensiyalar, inkişaf etməkdə olan ölkələrdəki iqtisadi vəziyyət startapların dəstəklənməsi istiqamətində dövlət təşviqinin artırılmasının vacibliyindən xəbər verir.**

**Müxtəlif ölkələrdə sahibkarlıq fəaliyyətinin, o cümlədən startapların inkişaf etdirilməsi hökumət üçün mühüm əhəmiyyət daşıyır və bu məqsədlə özünəməxsus münbit ekosistemin yaradılması istiqamətində işlər görülür.**

Bu günün uğurlu startapları sabahın kiçik və orta biznesləridir. Kiçik və orta sahibkarlıq subyektlərinin isə ölkə iqtisadiyyatının inkişafında çox böyük əhəmiyyəti var. Belə ki, işsizliyə qarşı mübarizədə və ölkədə innovasiyanın tətbiqində kiçik biznesin oynadığı rol danılmazdır. Startaplar həm də neftdən asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun inkişafı və bütövlükdə iqtisadiyyatın diversifikasiyası ilə bağlı hədəflərə nail olunması baxımından çox önəmlidir.

Bu, iqtisadiyyata innovasiyanı gətirən və innovativ olaraq iqtisadiyyatın inkişafını stimullaşdıran təşəbbüslərdəndir. Son illərin təcrübəsi göstərir ki, bütövlükdə innovasiyanın əhəmiyyətli hissəsi məhz startaplara aiddir. İnkişaf etmiş ölkələrdə iqtisadiyyatın yüksək texnologiyalar sektorunda işlə təmin olunan əhalinin 40 faizi kiçik biznes subyektlərinin payına düşür.

Azərbaycanda əlverişli biznes mühitinin yaradılması, vergi güzəştləri və biznesləri dəstəkləmə üçün real dövlət proqramlarının həyata keçirilməsi son illər geniş tətbiq olunur. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə Azərbaycanda mikro və ya kiçik sahibkarlıq subyekti olan startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri 3 il müddətinə gəlir və mənfəət vergisindən azad olunub. Bundan əlavə, mikrobiznes, kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir, mənfəət, əmlak vergisi üzrə güzəştlər də nəzərdə tutulub.

Qeyd edək ki, "Startap" (Start-up) dedikdə yeni bir innovativ ideyanın reallaşdırılması və yaxud daha əvvəldən mövcud olan hər hansı bir biznes proseslərin tam fərqli formatda təqdim olunması və yaxud özündə innovativliyi səciyyələndirən sahibkarlıq fəaliyyəti başa düşülür. "Startap" şəhadətnaməsi vergi ödəyicisi olan mikro və yaxud kiçik sahibkarlıq subyektlərinə verilir. "Startap" şəhadətnaməsi gəlir və ya mənfəət əldə etmək məqsədilə istehsal olunan, innovativ təşəbbüsə əsaslanan, rəqabətqabiliyyətli, eləcə də digər startap məhsulu (xidməti) ilə eynilik təşkil etməyən məhsul (xidmət) istehsalı üçün təqdim edilir.

Ölkəmizdə innovativ sahibkarlığın inkişafı, startapların ideyalarının və startap ekosisteminin inkişafına dəstək məqsədilə bir sıra güzəştlər tətbiq olunur, xüsusi zonalar, inkubasiya və akselerasiya mərkəzləri fəaliyyət göstərir, qrant müsabiqələri keçirilir. Bu təşəbbüslər mütərəqqi beynəlxalq təcrübə, müasir qlobal meyillər nəzərə alınmaqla daha da genişləndirilməkdədir.

Azərbaycan dünyada "Startap" meyarlarını müəyyənləşdirmiş və bunu müvafiq qərarla təsdiq etmiş ölkələr sırasındadır. Şəhadətnamələr Ekspertlər Şurasının rəyi əsasında KOBİA tərəfindən verilir. İndiyədək 88 sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.

Ekspertlərin fikrincə, startapların say etibarilə genişləndirilməsi daha innovativ tədbirlərin, xüsusən də qeyri-neft sektorunun inkişafına hesablanan layihələrin və təşəbbüslərin maliyyələşməsinə imkan verəcək. "Startap" və kiçik bizneslər üçün yaradılan bu vergi güzəştləri ölkəmizdə sahibkarlıq fəaliyyətini daha da canlandıracaq, ölkəmizin iqtisadi inkişafına və insanların məşğulluğuna öz töhfəsini verəcək.

**Bu günlərdə "Startap" şəhadətnaməsinin verilməsi üçün yaradılmış Ekspertlər Şurasının növbəti toplantısının keçirildiyini xatırladan Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında deyib ki, daha 2 qurum "Startap" şəhadətnaməsi alıb.** Onun sözlərinə görə, toplantıda "Startap" şəhadətnaməsi almaq üçün KOBİA-ya sənəd təqdim edən 3 sahibkarlıq subyektinin müraciətinə baxılıb. İddiaçıların səlahiyyətli nümayəndələri qısa müddətli təqdimatlar ediblər. Ekspertlər Şurasının qiymətləndirilməsi əsasında 2 quruma "Startap" şəhadətnaməsinin verilməsi tövsiyə edilib.

O.Gündüzün sözlərinə görə, hazırda startaplara yeganə dövlət dəstəyi İqtisadiyyat Nazirliyi tabeliyində KOBİA-nın verdiyi "Startap" şəhadətnaməsidir. Bu məqsədlə yaradılan Ekspertlər Şurasının bir neçə dəfə iclası keçirilib: "Startap" şəhadətnaməsinin üstünlüyü ondan ibarətdir ki, bu statusu qazananlar 3 il müddətinə əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən azad olunurlar. Müşahidələr isə göstərir ki, gəliri olmayan startaplar da "Startap" şəhadətnaməsi almaq üçün müraciətlər edirlər. Gəliri olmayan "Startap" üçün bu sənədin hansısa birbaşa təsirləri yoxdur.

*"Gəlirlər əldə edənədək, ilkin mərhələdə startaplara dəstək olduqca vacibdir. Müvafiq qurumlar məsələlərə diqqəti artırmalı, investisiya mühitinin yaxşılaşması üçün səyləri gücləndirməlidir"*

Ola bilər ki, bu dövlət sənədini əldə edənlər investisiya almaq üçün də "Startap" vəziyyətlərini daha üstün etmək istəyirlər. Amma fərqində olmaq lazımdır ki, "Startap" şəhadətnaməsi yalnız 3 il müddətinə verilir.

Digər üstünlükləri əldə etmək üçün də vaxtından tez, qurumun heç bir gəliri olmadan da "Startap" şəhadətnaməsinin əldə edilməsi "Startap"ın sonrakı inkişaf mərhələsində, gəlirlər gətirdiyi zaman vergilərdən azad olunmaqla bağlı ciddi problemə çevriləcək.

Bununla da "Startap" yeganə dövlət dəstəyindən də məhrum olmuş olacaq. Odur ki, "Startap" şəhadətnaməsi üçün müraciət edənlər yaxşı olardı ki, bu prosesə məhz gəlirlər əldə edildiyi zaman baş vursunlar".

**Ekspert deyib ki, hazırda ekosistemdə daha ciddi mövcud problemlərdən birisi startapların ilkin inkişaf dövründə əldə edə biləcəyi dəstək və investisiyalarla bağlıdır. Burada dövlət dəstəyinə, universitetlərin dəstəyinə ciddi ehtiyac var:** "Yeni gəlirlər əldə edənədək, ilkin mərhələdə startaplara dəstək olduqca vacibdir.

Müvafiq qurumlar məsələlərə diqqəti artırmalı, investisiya mühitinin yaxşılaşması üçün səyləri gücləndirməlidir. Qanunverici baza təkmilləşdirilməlidir. İnnovasiyaların inkişafı ilə bağlı, Vençur maliyyələşmə ilə bağlı sənədlərin hazırlanmasının uzun müddət gecikdirilməsi sektorda ciddi ləngimələrə səbəb olur".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Humanitar sahə üzrə universitetə ehtiyac yoxdur

## Türkiyə ilə birgə universitet ölkəmizdə ehtiyac olan digər sahələr üzrə yaradılmalıdır

**Azərbaycan-Türkiyə birgə universiteti ideyası reallaşmaq üzrədir. Prezident İlham Əliyev Türkiyənin milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən bu haqda danışıb. Prezident bildirib ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir.**

Və qardaş ölkənin təhsil nazirinin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün Azərbaycana səfəri əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcək. Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını da deyib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təhsil sahəsində ilk əməkdaşlıqlar təbii ki, qardaş ölkə Türkiyə ilə quruldu və bir neçə təhsil müəssisəsi fəaliyyətə başladı. Tədris proqramı, ümumi mühiti də sovet təhsil sistemindən fərqlənən bu müəssisələri bitirənlər hazırda bir çox sahələrdə özünü təsdiqləməkdədir. Türkiyə təhsil sisteminin beynəlxalq reytinqlərdə yüksək pillələrdə qərarlaşması, dünyavi olduğu qədər də milli olması, şəksizdir. Eyni zamanda bu universitet türk dünyası və ümumtürk coğrafiyası üçün gələcəyə açılan böyük bir qapı ola bilər. Bu mənada hansı yöndən baxsaq, birgə universitetin yaradılması təhsilimizin yalnız xeyrinə olacaq. Mütəxəssislər də bu fikirdədir ki, Azərbaycan-Türkiyə birgə universiteti təhsilimizin inkişafında vacib amillərdən biri olacaq. Universitetin fəaliyyətində nələrə önəm verilməli, tədris proqramları necə tərtib edilməlidir?

**Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasıyla bağlı mühüm mesajlar verilir və bu, sevindiricidir:**

*"Burada daha çox texnologiya, iqtisadiyyat, turizm, memarlıq, inşaat ixtisaslarına önəm verməliyik. Açacağımız birgə universitet həmçinin reytinqli olmalıdır"*

- Türkiyə ilə birgə universitetin yaradılması həm siyasi, iqtisadi, həm də mədəni və tarixi əlaqələrimiz baxımından labüd görünür. Bizə ən yaxın, qardaş, dost, köməyə ehtiyac duyduqda ilk yanımızda olan ölkə Türkiyədir. Türkiyə Azərbaycan üçün hansı əhəmiyyəti daşıyırsa, Azərbaycan da Türkiyə üçün eyni əhəmiyyəti daşıyır. Tarixi köklərə, tarixi hadisələrə baş vurmağa ehtiyac duymuram. Bunlar bəllidir. Bizə qardaş ölkə ilə, kökümüz, dilimiz, dinimiz bir olan ölkə ilə birgə universitetin yaradılması labüddür. Hələ təəssüf ki, buvaxtadək yaradılmayıb. Uzun illərdir ki, bu məsələni təklif edirdik. Hazırda ölkəmizdə Fransa-Azərbaycan Universiteti fəaliyyət göstərir. Eyni zamanda İtaliya ilə də birgə universitet açma təcrübəmiz var. Bundan başqa, Bakı Ali Neft Məktəbinin nəzdində Cənubi Koreya ilə birgə universitet yaradılıb. Məsələnin digər tərəfi Türkiyənin hansı universitetilə birgə universitet yaradılacağıdır. Yəni bu məsələdə hansısa konkret ali məktəb iştirak edəcək, yoxsa dövlət səviyyəsində yeni bir təhsil ocağı yaradılacaq? Hesab edirəm ki, humanitar sahə üzrə birgə universitetə ehtiyac yoxdur. Zatən bizim ali məktəblərdə ümumi türk tarixi, ədəbiyyatı, dili tədris olunur. Birgə universitet ölkəmizdə ehtiyac olan digər sahələr üzrə yaradılmalıdır. Burada daha çox texnologiya, iqtisadiyyat, turizm, memarlıq, inşaat ixtisaslarına önəm verməliyik. Açacağımız birgə universitet həmçinin enerji ixtisaslarını özündə ehtiva etməlidir və reytinqli olmalıdır. Azərbaycanda İKT ixtisaslarında ciddi şəkildə zəiflik və boşluqlar var. Bu istiqamət üzrə ölkənin ali təhsil müəssisələri düzgün kadr hazırlığı həyata keçirə bilmir. İkili universiteti seçərkən Türkiyənin texnologiya üzrə ixtisaslaşmış Yıldız Texniki Universitetini, Qara Dəniz Texniki Universiteti, 9 Eylül Universiteti və Ege Universitetini seçə bilərik. Həmçinin ikili universitetdə bütün ixtisaslar üzrə qəbul həyata keçirməməliyik. Lazım olan ixtisasları seçməliyik.

**K.Əsədov xatırlatdı ki, işğaldan azad olunmuş Qarabağda tikinti-quruculuq işlərində Türkiyə şirkətləri də çalışır. Türkiyənin bu sahədə də böyük təcrübəsi var:**

- Türkiyənin Çorum şəhəri ilə qardaşlaşmış Füzuli şəhərinin bərpası ilə bağlı birgə layihələrdə Azərbaycan Texniki Universiteti və Hitit Universiteti iştirak edəcək. Bu barədə AzTU ilə Türkiyənin Hitit Universiteti rəhbərliyi arasında razılaşma mövcuddur. Belə birgə layihələrdə də üstünlük verilməli, iki ölkənin uyğun ixtisaslar üzrə ali məktəbləri birgə əməkdaşlığı genişləndirməlidir.

**Məlahət Rzayeva**

# "Bu sınaqdan da üzüağ çıxacağıq"

## Sahib Alıyev: "İrandakı dinsiz rejimə bağlı ünsürlərin, ideoloji virusların ölkəmizdə epidemiya yaratmalarının önünü kəsəcəyik"



**"GALLUP International Association" şirkəti Ermənistanda rəy sorğusu keçirib. Sorğuda qoyulan suallardan birinə verilən cavabdan belə bəlli olub ki, revanşizm haqqında düşünən respondentlərin 40 faizi İranın, 34,2 faizi Fransanın, 30 faizi Rusiyanın, 27,8 faizi isə ABŞ-nin onlara hərbi-siyasi dəstək göstərəcəyinə ümid edirlər". Bu barədə millət vəkili Sahib Alıyev deyib. Deputat bildirib ki, Ermənistanın kimin qanadının altında yaşamasına, hansı dövlətə forpostluq etməyə üstünlük verməsinə gəldikdə isə rəyi öyrənilənlərin cəmisi 4,8 faizi İranın adını çəkib:**

"Maraqlıdır, Tehrandakı dinsiz rejimdənsə, Rusiyaya forpostluq etməli olduqlarını düşünənlər təqribən 5 dəfə çoxdur. Ancaq Azərbaycanla savaş başlayarsa, hərbi-siyasi dəstəyi daha çox İrandan gözləyirlər. Səbəbi sirr deyil. Birincisi, onlar görürlər ki, İran Azərbaycana Ermənistandan da düşməncəsinə yanaşır. İkincisi, Qarabağ uğrunda gedən savaşlarda dinsiz rejimdən hərtərəfli yardım alıblar. Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan bu yaxınlarda, hətta ötən ilin sentyabr döyüşlərində də İranın onlara kəşfiyyat xarakterli və hərbi-texniki dəstək verdiyini etiraf etdi. Yəni bu reallıqlardır revanşizm üzərində düşünən hayları İranı özlərinin ən yaxın müttəfiqi gözündə görməyə vadar edən. İndi sizdən soruşmaq istərdim, Azərbaycanda belə bir rejimə qulluq edənlər necə adlanmalıdır? Biz aramızda elələrinin varlığına dözməliyikmi? Güc strukturlarımız bizə qarşı qatı düşmənçilik siyasəti yeridən rejimə xidmət edən o cür yaramazları bir-bir, yaxud dəstə halında üzə çıxarıb hara lazımdır ora da göndərir. Və mən bunu alqışlayıram! Ancaq cəmiyyət olaraq biz nə edirik? Xeyli dindarlarımız var ki, İrana bağlıların təsiri altında xüms verirlər. Onlar anlayırlarmı ki, verdikləri o pullar, hərbi-texniki dəstək şəklində haylara ötürülür. Azərbaycan dövlətinin, bütövlükdə millətimizin əleyhinə yönələn məqsədlərə sərf edilir. Pulun var, qonşuluğundakı kasıba əl tut, digər xeyirxahlıqlar et, yağlı sifət, yüngülsaqqal düşmənə niyə göndərirsən?".

**Parlament üzvü vurğulayıb ki, cəmiyyət olaraq bizim belə məsələlərdə barışmaz mövqe sərgiləməmiz güc strukturlarımızın casusluq edən şərəfsizləri tutub həbsə atmalarından heç də az önəmli deyil:** "Görmürük ki, Laçın yolunda aksiya keçirən, vətəndaş mövqeyi ortaya qoyan, çoxu gənclərdən ibarət soydaşlarımızın təəssübkeşliyi kimləri, hansı çevrələri qıcıqlandırır? Ona görə ki, təkcə dövlətimizin deyil, bütövlükdə xalqımızın suverenliyimizin təmini üçün hər şeyə hazır olduğunu, əzmimizi görürlər. Dünyanın hazırda gərginliklər, toqquşmalarla dolu bir mərhələdən keçdiyi dönəmdə təkcə dövlətin güclü olması bəs etmir. Hər bir ölkənin gələcəyini oradakı cəmiyyətin vətənpərvərlik, dövlətə bağlılıq, yetkinlik dərəcəsi, öz milli maraqlarının təmini uğrunda təşkilatlanmaq bacarıqları müəyyənləşdirəcək. Ümid edirəm, 50 milyonluq xalq olaraq bu sınaqdan da üzüağ çıxacağıq. İrandakı dinsiz rejimə bağlı ünsürlərin, ideoloji virusların ölkəmizdə epidemiya yaratmalarının önünü kəsəcəyik. Əziz dostlar, ortaya mövqe qoyun, dinsiz rejimə ideoloji doğmalığını bizim cəmiyyətə sırımağın, Azərbaycanı öz yolundan döndərməyin mümkünsüzlüyünü göstərin".

**İsmayıl**



## Nazpərinin bacısının xəstəxanadan görüntüsü yayıldı

**Xəbər verdiyimiz kimi, Xalq artisti Nazpəri Dostəliyevanın müğənni bacısı Zeynəb Dostəliyeva xəstəxanaya yerləşdirilib.**

İfaçı ciyərlərindən əziyyət çəkir. ATV-də yayımlanan "A-dan Z-yə" verilişi Dostəliyevanın xəstəxanadan görüntülərini yayımlayıb.

*Qeyd edək ki, Zeynəb Dostəliyevanın xəstəxanaya yerləşdirilmə xəbərini ilk dəfə Axşam.az saytı yayımlamışdı. Onun ciyərlərində problem var.*

## Xeyli gecikmiş addımdır

Naxçıvan DİM-də yoxlamalar çoxdan aparılmalı idi



**"Naxçıvan Dövlət İmtahan Mərkəzində hüquq-mühafizə orqanlarının yoxlamalar aparması olduqca normaldır. Hətta deyərdim ki, xeyli gecikmiş addımdır".**

*Bunu "Şərq"ə tanınmış jurnalist, "Ovqat.com" saytının baş redaktoru Heydər Oğuz deyib. Onun sözlərinə görə, bu qurumun niyyəti məmurların səviyyəsini müəyyənləşdirmək olmayıb:* "Məqsəd kimlərisə işdən çıxarmaq və yerinə başqa birisindən rüşvət alaraq, boşalan vəzifəyə təyin etməkdir. Yaxud da imtahandan kəsilən məmurun "dərisini soymaqla" yerində saxlamağa çalışıb. Mənə bir jurnalist kimi bu istiqamətdə xeyli şikayətlər edilib".

**Jurnalist həmin şikayətləri araşdıraraq, belə bir qənaətə gəlib:** "Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədovla DİM rəhbəri İsmayıl Qəribli əl-ələ verərək, rüşvət mexanizmi yaratmağa xidmət edib. Üstəlik, Naxçıvan ölkəmizin tərkib hissəsidirsə və vahid mərkəzdən kadr seçimi aparan, bunun üçün sertifikasiya imtahanları keçirən Azərbaycan DİM varsa, ona paralel dövlət qurumu yaratmağın anlamı nədir?! Bu, arabanın 5-ci təkərinə bənzəmirmi?! Adətən bizim kimi ölkələrdə arabanın 5-ci təkərləri rüşvət yığmaq üçün nəzərdə tutulur. Naxçıvan "xan"ının 27 illik fironluğunun korrupsiyaya əsaslandığını nəzərə alsaq, bu cür paralel qurumların ən yaxşı halda bürokratik süründürməçilik yaratmağa, ən pis halda isə separatçı məqsədlərə xidmət etdiyi bəllidir. Hər iki hal dövləti cinayətdir. Azərbaycan hakimiyyəti bunun qarşısını almalıdır".

Qeyd edək ki, hüquq-mühafizə orqanları Naxçıvan Dövlət İmtahan Mərkəzində (DİM) yoxlamalar keçirir. Yoxlamaların səbəbinin 2022-ci ilin dekabr ayında müəllimlərin işə qəbulu ilə bağlı keçirilən imtahan suallarının satılması iddiası barədə olduğu bildirilir.

Məlumatı Naxçıvan DİM-in mətbuat katibi Məmməd Babayev təsdiq edib.

Sücayət Mehti

# Onlar cəmiyyətə yararlı övlad böyüdürlər

## Evdar qadınların sosial müdafiəsi ilə bağlı siyasətə yenidən baxılmalıdır

**"Azərbaycanda evdar qadınların sosial müdafiəsi ilə əlaqədar siyasətə yenidən baxılmasına və mütərəqqi xarici təcrübənin tətbiqinə ciddi ehtiyac var". Bu sözləri "Azərbaycanda evdar qadınların sosial müdafiəsi problemləri və beynəlxalq təcrübə" mövzusunda keçirilən dəyirmi masada "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə" İB-nin icraçı direktoru Əliməmməd Nuriyev deyib.**

Evdar qadınların sosial müdafiəsi və yuvenal ədliyyə ilə bağlı təkliflər təqdim edildiyini vurğulayan Ə.Nuriyev hesab edir ki, bu gün ömrünün məhsuldar dövrünü evdar qadın kimi keçirən, cəmiyyət üçün övladlar böyüdən qadınlar boşandıqda, yaxud forsmajor hallar ilə üzləşdikdə sosial cəhətdən tamamilə müdafiəsiz vəziyyətdə qalırlar: "Bir qayda olaraq ailənin mənzili, evi evlilik rəsmiləşənə qədər əldə edilir, yaxud kişinin valideynlərinin sərəncamında olur. Qadın əmlaka iddia edə bilmir, uzun illər evdar qadın kimi fəaliyyəti isə onun əlverişli iş tapmasını çətinləşdirir, pensiyaya çıxdıqda isə yalnız yaşa görə pensiyaya ümid edə bilir. Nikah müqaviləsi bağlanması halları isə çox azdır. Hökumət bu real problemləri nəzərdən keçirməli və çıxış yolları tapmalıdır".

Tədbirdə "Şəffaflıq Azərbaycan" Korrupsiyaya



Qarşı Mübarizə" İB-nin icraçı direktoru Əlimәmməd Nuriyev təşkilatın və "Uluçay" Sosial-İqtisadi İnnovasiya Mərkəzi İB-nin Avropa İttifaqı və BMT İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) dəstəyi ilə icra etdiyi "Azərbaycanda uşaqların və həssas qadınların insan hüquqlarının monitorinqi və müdafiəsi" layihəsi barədə məlumat verib. Layihə əlaqələndiricisi Zaur İbrahimli görülmüş işlərdən söz açıb. Layihə çərçivəsində qadınlara göstərilmiş hüquqi yardım barədə məlumat verib.

Şəymən

# Ən azı min manat gəliri olmalıdır

## İqtisadçı: "Vətəndaşlar artan xərclərdən xilas edilməlidirlər"



**"Orta statistik Azərbaycan ailəsinin minimum ehtiyaclarını ödəmək üçün heç olmasa, 1000 AZN-dən yuxarı gəlir olmalıdır".**

*Bunu "Şərq"ə iqtisadçı-ekspert Nazim Bəydəmirli şəhərlərarası (rayonlararası) avtobus marşrutlarında sərnişin biletlərinin bahalaşmasından danışarkən deyib. Ekspert diqqətə çatdırıb ki, vətəndaşların qazancının az olması Azərbaycanda əsas problemlərdəndir:* "İşsizlik faizi yüksəkdir. Lakin hökumət statistikasında işsizlik və yoxsulluqla bağlı rəqəmlər demək olar ki, saxtalaşdırılır. İşsiz statusu verməküçün məşğulluq idarələrində iş yeri olmayan şəxs kimi qeydiyyata düşənlərə müxtəlif bürokratik əngəllər yaradılır. Eyni zamanda rayonlarda pay torpaqları, bundan əlavə, Vergi Ödəyicisi Eyniləşdirmə Nömrəsi (VÖEN) olanlar işsiz kimi qeydiyyata alınmırlar. Gündəlik sərnişindaşıma tariflərindəki dəyişikliklər insanların həyatında çox böyük xərclərə gətirib çıxaracaq. Hökumət vətəndaşlarımızın daha çox vəsait qazanması üçün şərait yaratmalıdır. Ehtiyacı olan şəxslər sosial yardımla təmin olunmalıdır. Eyni zamanda güzəştli kateqoriyadan olan vətəndaşlarımıza (tələbə, pensiyaçı, qazi, şəhid ailələri) ictimai nəqliyyatda kompensasiya etmək üçün abunə kartları, digər vəsaitlər verməklə həmin adamlar artan xərclərdən xilas edilməlidirlər".

*Qeyd edək ki, şəhərlərarası (rayonlararası) avtobus marşrutlarında məsafəyə uyğun sərnişin biletlərinin yeni tarifləri elan olunub. Bunu Bakı Beynəlxalq Avtovağzalı bildirib. Yeni qiymətlər fevralın 3-dən qüvvəyə minib. Tarif (qiymət) Şurasının 31 yanvar 2023-cü il tarixində keçirilən növbəti iclasında daşıyıcı şirkətlərin müraciətlərinə baxılıb və ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib.*

Sücayət Mehti

## "Yuxu"



**"Şərq" tanınmış şair Taleh Mansurun "Yuxu" şeirini təqdim edir.**

Göyün xəyalımdı,
yerin yuxumdu,
Sən olan yuxular dərin yuxumdu.
Xəyalım çəkilib göylərindədi,
Yuxuya dalmışam sənin yerində-
Şirin yuxuların sərin yerində...
Yəqin, oyanmaram özümə qalsa,
Hey yuxu görərdim gözümə qalsa.
Bir də ki, sən özün yaxşı bilirsən,
Sənli yuxuların dayazı olmur.
Yağış, qar töksə də,
ayazı olmur;
Nə qışı, nə də ki, payızı olmur.
Sənə düşmən olan sərsəri duyğu
Yad olur canımda özgəyə dönür.
Bulanıq yuxular durulur səndə,
Aynaya çevrilir, güzgüyə dönür.
Bir zaman olur ki, o şən güzgüdə,
Əksimi göstərən o sən güzgüdə
Özümü görürəm,
yozuram sənə.
Əlimdən nə gəlir,
nə gəlir başqa,
Ən gözəl şeiri yazıram sənə.
Daha nə istəyirsən,
şeir olursan...
Misraya çevrilib, bəndə dönürsən.
Axtarma özünü, itirmə məni,
adın dilimdədi
qəndə dönürsən...

## "Nar"ın dəstəyi ilə Fibonacci Games oyunlarının finalı keçirilib

**"Nar"ın dəstəyi ilə ölkənin ilk intellektual-əyləncəli oyunu olan Fibonacci Games oyunlarının 9-cu mövsümünün finalı keçirilib.**

FIBONACCI GAMES | nar

Artıq 6-cı ildir ki, hər həftə yüzlərlə intellektual asudə sevənləri Fibonacci Games oyunları bir yerə yığır. Bu mövsümün final oyununun qaliblərinə isə mobil operator "Nar" dəyərli hədiyyələr təqdim edib.

Qeyd edək ki, intellektual hərəkatın kütləviləşməsində böyük rol oynayan Fibonacci Games oyunlarının bu mövsümündə 40-dan çox komandaya müxtəlif sahələrdən olan suallar verilib. Yarışın həm Azərbaycan, həm rus dillərində olması daha çox insanın bir araya gəlməsini təmin edib.

Hər zaman müasir trendləri izləyən "Nar" mütərəqqi və proqressiv gənclərə dəstəyini bu cür intellektual layihələrlə ifadə edir. Mobil operatorun bu istiqamətdə gördüyü işlərlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz.

**Elan**

Hərbi Dəniz Qüvvələri leytenantı Həsənov Davud Səbuhi oğluna məxsus MN 0064384 №-li zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



## Halal adam

Yadigar kişi doğulduğu torpağa bağlılığını tamam fərqli şəkildə izhar edib

**Vətəni təkcə şairlər, musiqiçilər tərənnüm etmir.**

Azərbaycanın ən sadə insanları da Vətəni böyük sevgisi ilə, səmimi şəkildə tərənnüm edə bilirlər. Vətənə sevgini hər kəs özünəməxsus şəkildə çatdırır. Kimisi işiylə, əməyi ilə, kimisi qələmə aldığı əsərlərlə. Canını Vətənə fəda edənlər də var: Şəhidlərimiz, qazilərimiz. **Lənkəranda yaşayan, uzun illər bənna işləmiş Yadigar Seyfullayev doğulduğu torpağa bağlılığını tamam fərqli şəkildə izhar edib. "Şərq"ə gələn Yadigar bəy redaksiyaya bir şeir təqdim etdi. Özü qələmə aldığı şeir deyildi, yox.** Bu, imzası çoxlarına tanış olan Beşir Kəsərlinin yazmış olduğu şeirdir. Hansı ki məhz Lənkərana həsr olunub. Böyük ailəsini halal zəhmətiylə saxlamış, indi də nəvələriylə vaxt keçirən Yadigar bəyin redaksiyaya gəlişi, özündən, ailəsindən daha çox məhz doğulduğu torpaq, Lənkəranın mehriban, istiqanlı, qonaqpərvər və vətənpərvər insanları haqqında danışması və bu şeiri təqdim etməsi Lənkəranın timsalında Azərbaycana sevgisinin təzahürü idi. Həmin şeiri Yadigar bəy və Lənkəran əhalisinin Vətən sevgisinə ayna tutaraq təqdim edirik.

**Daş üstə daş qoymusan,**
**Məhəbbətlə dolusan,**
**Neçə qanı yumusan,**
**Sən də şəhid olmusan,**
**Dünya görmüş gözünlə**
**Ululardan ulusan,**
**Vəziri-xan Lənkəran,**
**Həzi, Aslan Lənkəran.**
**Günəşimsən, ayımsan,**
**Baharımsan, yayımsan,**
**Allahdan payımsan,**
**Zəfərini, ünümü**
**Asimana yaymısan,**
**Xoş sədamsan, ünümsən,**
**Toyumsan, düyünümsən,**
**İftixarım Lənkəran,**
**Kaman, tarım, Lənkəran.**

"Şərq"

# Axşam 11-də yatmayanların immuniteti çökür

## Güclü immunitetin ikinci sirri sağlam qidalanmadır

**İmmunoloq və teleaparıcı Andrey Prodeus böyüklərdə və uşaqlarda güclü immunitetin formalaşmasına səbəb olan üç əsas qaydanı açıqlayıb.**

"Medicina" xəbər verir ki, mütəxəssisin tövsiyələri yutubda "Doctor" kanalında yayımlanıb. Həkim düzgün yuxu rejimini bu qaydalardan biri adlandırıb.

"Əslində, yaxşı immunitet nə qədər və necə yatmağımızdan, nə vaxt yatmağımızdan, nə vaxt qalxmağımızdan asılıdır. Təxminən sa-



at 23:00-dan 3:00-a qədər immun hüceyrələri və sümük iliyi yeni hüceyrələr yaradır, digərləri isə enerji toplayır.

Güclü immunitetin ikinci sirri sağlam qidalanmadır. İmmun hüceyrələr D vitamini olmadan işləyə bilməz, odur ki, bu elementlə zəngin qidaların pəhrizə daxil edilməsini tövsiyə edirəm. Bundan əlavə, dəmir çatışmazlığı immunitetə zərər verə bilər.

Üçüncü qayda əlbəttə ki, artıq çəkinin qarşısının alınmasıdır. Niyə? Çünki piy və artıq çəki hüceyrələrimizi məcazi mənada obez edir, həm də tənbəlləşdirir", - immunoloq izah edib.

O, yekunda bildirib ki, artıq çəkili insanlarda immun hüceyrələrin sayı qorunub saxlanılır, lakin onların işinin effektivliyi azalır.

# "4 kq çəki atmışam, amma bədənimdə yığılma var"

## Aparıcı arıqlamaq üçün ciddi pəhrizə başladığını söyləyib

***"Hər zaman yazırlar ki, Kamilə Babayeva artıq çəki alıb. İndi arıqlamışam... Evə hazır pəhriz yeməkləri gətirən şirkətlə danışmışam. 4 kiloqram çəki atmışam. düzdür, çox deyil, amma bədənimdə yığılma var".***

Bu sözləri axşam.az-a açıqlamasında aparıcı Kamilə Babayeva deyib. Aparıcı arıqlamaq üçün ciddi pəhrizə başladığını söyləyib.

K.Babayeva yeni layihə istəməsi arzusunu da etiraf edib:

"Çox maraqlı layihələr istəyirəm. Adama elə gəlir ki, müəyyən vaxtdan sonra tükənərsən, istəməzsən. Yox, əksinə, nəsə yeni bir şey etmək istəyirsən. Amma darıxdırıcı nəsə istəmirəm. Ağlımda hazırda heç nə yoxdur. İnanıram ki, maraqlı nəsə olacaq".

**"Ən çox baxdığınız veriliş hansıdır" sualına aparıcı belə cavab verib:**

"Kimisə qırmağı, birinin adını çəkim, biri qalsın istəmirəm. İstəyirəm ki, içi mən qarışıq bütün aparıcılar keyfiyyətli işlə tamaşaçı qarşısına keçsin. Televiziya vaxtı keçir. Hansısa məclisə gedirsən, deyirlər, televizora baxmırıq. Amma 10 dəqiqə sonra baxırsan danışırlar, məlu-



matlıdırlar. "Baxmıram" deyənlər də baxır. Amma baxıb zövq almaq, qürur duymaq lazımdır. Elə bir zamanın tez bir zamanda gəlməyini arzulayıram".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300025AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 317



## “Bobi" ən yaşlı it oldu

30 yaşında Ginnesin Rekordlar Kitabına düşdü

**30 yaşlı ”Bobi” adlı it Ginnesin Rekordlar Kitabı tərəfindən dünyanın ən yaşlı iti elan edilib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Saf Rafeiro do Alentejo cinsindən olan ”Bobi”, ən çox yaşayan it tacını 23 yaşlı ”Çihuahua Spike”dən alıb.

Ginnes rəsmilərinə Bobinin varlığı barədə məlumat verilməzdən əvvəl ”Spike” rekordçu kimi cəmi iki həftə keçirdi. ”Bobi” bütün həyatını Portuqaliyanın cənubundakı Conqueiros kəndində Kosta ailəsi ilə yaşayıb.

Ginnesin Rekordlar Kitabının saytında yer alan məlumata görə, ”Bobi” fevralın 1-nə kimi 30 il 266 gün keçirib.

**Turan**

## Təbiətin xilası

Nəsli tükənməkdə olan maral cinsi doğuldu



**Nəsli kəsilməkdə olan xallı maral cinsinə aid balanın dünyaya gəlməsi təbiətin, ekologiyanın xilası hesab edilir.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, maral balası Polşanın Poznan Milli Parkındakı heyvanxanada dünyaya gəlib. Maral balasının ilk addımlarını atdığını əks etdirən fotolar paylaşıldıqdan sonra minlərlə insan tərəfindən bəyənilib və ”dünyamız xilas oldu” nidaları ilə müşayiət olunub. Fotolarda maral balasının yanından ayrılmayan anasının onu daim təqib etdiyi, yaxınlaşaraq onlara baxmaq istəyən ziyarətçilərin nəzərlərindən qorumağa çalışdığı əks olunur. Bala da anasının yanından ayrılmır, onun hərəkət və davranışlarını izləyir. Maral balasının erkək və ya dişi olduğu hələ məlum deyil. Bala 18 günlükdür və bu, son illərdə doğulmuş 5 xallı maral balalarından biridir. Latın dilində ”ruso unicolor” adlanan sambar cinsli maral növü Hindistan yarımadası, Cənub-şərqi Asiya və yaxın adalarda məskunlaşıb. Bu marallar ağlayışa bənzər səs çıxararaq bir-birini səsləməklə məşhurdurlar. Erkək maralların buynuzları 1 metrə qədər uzanır. Ekosistemdə önəmli əhəmiyyətə malik olan xallı marallar ”nəsli tükənməkdə olan” növlərə aiddir və onları ovlamaq qadağandır. Xallı marallar mühafizə olunur və sayları artsın deyə müxtəlif ölkələrdə xüsusi ekoproqramlar icra edilir.

**Məlahət**



# Bura "baba və nənələr ölkəsi" ola bilər

70 yaşlı qocalar da valideynlərinin qayğısına qalır və işləməyə davam edirlər



**Doğum səviyyəsinin aşağı düşməsi və yaşlı əhalinin artması ilə Yaponiya gələcəkdə ”baba və nənələr ölkəsi” ola bilər. Dünyanın ən yaşlı cəmiyyətinə malik Yaponiyada əhalinin təxminən üçdə biri 65 və daha yuxarı yaşdadır. Gənc əhalinin sürətlə azalmasının davam etdiyi ölkədə 70 yaşlı qocalar valideynlərinin qayğısına qalır və işləməyə davam edirlər.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Şərqi Asiya ölkəsi Yaponiyada illik doğum sayı ilk dəfə 2022-ci ildə 800 mindən aşağı düşüb. 2023-cü ilin əvvəlinə olan məlumata görə, Yaponiyanın 124,77 milyonluq əhalisinin 29 faizi 65 yaşdan yuxarı, 11,6 faizi isə 0-14 yaş aralığındadır.

Yaponiya 65 və yuxarı yaşda olan ümumi əhalinin sayına görə dünyada birinci yerdədir. Onu 24,1 faizlə İtaliya, 23,3 faizlə Finlandiya izləyir. Daxili İşlər və Rabitə Nazirliyinin 2022-ci il məlumatına görə, 75 və yuxarı yaşda olan əhalinin sayı 19,3 milyon nəfərə, 65 və yuxarı yaşda olanların sayı isə 36,2 milyon nəfərə yüksəlib.

Səhiyyə, Əmək və Rifah Nazirliyinin 2021-ci il məlumatına görə, ölkədə 100 yaşdan yuxarı insanların sayı 86 mini ötüb. Yaşı 100-dən yuxarı olan əhalinin sayı 51 ildir ardıcıl olaraq artır. Əhali və Sosial Təminat Tədqiqatları üzrə Milli İnstitutun məlumatına görə, 2040-cı ilə qədər 65 və daha yuxarı yaşda olan insanların nisbəti Yaponiyada ümumi əhalinin 35 faizini keçəcək.

Yaponiyanın Baş naziri Fumio Kişida Yaponiyanın doğum nisbətinin aşağı düşməsi ilə ”sosial funksiyalarını itirmək ərəfəsində” olduğunu və bu il uşaq tərbiyəsi siyasətlərinə diqqət yetirəcəklərini açıqlayıb. Uşaq tərbiyəsinin asanlaşdırılmasını ”gələcək üçün ən təsirli sərmayə” olaraq xarakterizə edən Kişida doğum nisbətini geri qaytarmaq üçün ”öncə uşaq iqtisadiyyatı və cəmiyyət” fəlsəfəsini vəd edib.

”Ölkə iqtisadiyyatının və cəmiyyətinin davamlılığını və inklüzivliyini nəzərə alaraq, uşaqların tərbiyəsinə dəstək bizim ən mühüm siyasətimizdir”, - Kişida bildirib.

Hökumətin tabeliyində olan Uşaq və Ailə Agentliyi aprel ayından fəaliyyətə başlayacaq. Kişida, iyun ayına qədər bu əhatəli siyasətlərin büdcəsini iki dəfə artırmağı planlaşdıracaqlarını vurğulayıb.

**Turan**

## Lotereya oyununda səhv etdi

**17 milyon avro qazandı**



**Fransa vətəndaşı elektron biletin oyun tarixinin seçimində yol verdiyi səhv nəticəsində lotereyada 17 milyon avro udub.**

**Azərtac xəbər verir ki, Fransanın qumar oyunları tənzimləyicisi ”Francaise des jeux” bunun yanvar ayında baş verdiyini bildirib. Lotereyanı internet vasitəsi ilə oynayan iştirakçı öz bəxtini cümə günü, ayın 13-də sınamaq istəsə də, tarix seçimində səhvən yanvarın 14-nü qeyd edib.**

**Adının açıqlanmasını istəməyən 40 yaşlı fransalı bundan sonra işdən çıxaraq sahibkarlıqla məşğul olmağa, ev almağa və səyahət etməyə hazırlaşır.**

**2021-ci ilin oktyabr ayında Fransa Polineziyası sakini ”EuroMillions” lotereyasında 220 milyon avro udaraq bu oyunun rekord cek-potunu qazanmışdı.**

## Ebru Gündeş sevgilisiylə barışıb Dubaya getdi



**Türkiyəli məşhur müğənni Ebru Gündeş sevgilisi Rassan Khoshnawla barışıb.**

**Lent.az xəbər verir ki, cütlük Dubayda tətil edərkən kameralara yaxalanıblar.**

**Əldə edilən məlumatlara görə, Rassanın ailəsi cütlük arasındakı 22 yaş fərqini problemə çevirdikdən sonra onlar ayrılıb.**

***Qeyd edək ki, 11 illik həyat yoldaşı Reza Zarrabdan boşanan Ebru Gündeş özündən 22 yaş kiçik iş adamı ilə sevgili olub.***

## "Facebook" istifadəçilərinin sayı 2 milyardı ötdü




**Dünyanın nəhəng sosial şəbəkə platforması ”Facebook” istifadəçilərinin sayı 2 milyarda çatıb.**

**Bakupost.az bildirir ki, sosial şəbəkədən gündəlik istifadə edənlərin sayının dekabr ayında orta hesabla 2 milyarda, yəni dünya əhalisinin təxminən dörddə birinə çatdığı açıqlanıb.**

**Qeyd edək ki, Instagram və WhatsApp-ın da sahibi olan Meta, keçən il işçilərinin təxminən 13 faizini işdən çıxarmışdı.**

**Dekabr ayına qədərki üç ay ərzində şirkət gəlirinin illik müqayisədə 4 faiz azalaraq 32,2 milyard dollar olduğunu bildirib.**

**Mark Zukerberq, şirkətin xüsusilə gənc istifadəçilər arasında populyar olan TikTok kimi rəqiblərlə qarşılaşarkən diqqət yetirdiyi video məhsulu Reels ilə irəliləyiş əldə etdiyini deyib.**



## Göz damcılarından davamlı istifadə infeksiya yaradır

Oftalmoloq Günay Əliyeva: “İstənilən damcıların həkimin nəzarəti olmadan təyin olunmasının əleyhinəyik”

**Amerikalı mütəxəssislər göz damcıları ilə bağlı araşdırma aparıblar.**

**”Lent.az” xarici mətbuata istinadən xəbər verir ki, araşdırmalara görə, göz damcılarının istifadəsi davamlı infeksiyanın inkişafına səbəb ola bilər.**

ABŞ-nin 11 ştatında göz damcılarını mütəmadi olaraq istifadə edən 50 nəfərin əksəriyyətinin gözündə infeksiya aşkarlanıb.

Araşdırma nəticəsində infeksiyaya yoluxanlardan birinin öldüyü, üç nəfərin isə görmə qabiliyyətini itirdiyi məlum olub. Bəzilərində isə tənəffüs yolu və sidik yollarının infeksiyaları müşahidə edilib.

Qeyd edək ki, mütəxəssislər damcıların istehsal prosesi zamanı çirklənə biləcəyini ehtimal edir.

**Oftalmoloq Günay Əliyevanın ”Şərq”ə açıqlamasına görə, göz damcıları bir çox sadə və mürəkkəb göz problemlərini müalicə etmək üçün istifadə edilən salin tərkibli məhlullardır:** ”İstənilən göz damcılarının tərkibində konservantlar var. Konservantların uzunmüddətli istifadəsi gözdə quruluq əmələ gətirə bilər, qıcıqlandırma və hətta reaksiyalar verə bilər. Buna görə də istənilən damcıların həkimin nəzarəti olmadan təyin olunmasının əleyhinəyik. Lakin burada süni göz yaşlarını çıxmalıyıq. Süni göz yaşlarına rahatlıqla, gözə baxmamış tökə bilərsiniz. Ancaq tərkibində formokoloji qurğular olan damcıların gözə ziyanı ola bilər. Bu damcıları həkim nəzarətsiz və uzun müddət tökdükdə gözə çox ziyanı ola bilər. Allergik əlamətləri olan bir çox pasientlərlə olur ki, onlara steroid damcılar yazıblar və bu damcılar mirvari suyu katarakta əmələ gətirir, həmçinin göz təzyiqinin qalxmasına gətirib çıxara bilər. İstənilən halda oftalmoloq məsləhəti olmadan göz damcılarının tökülməsi məsləhət deyildir”.

Həkimin sözlərinə görə, göz damcılarının davamlı istifadəsi *(məsələn, qlaukomada)* dakriostenozun risk amili sayılır.

**Şəymən**

## Hadisənin yeni sevgilisi ortaya çıxdı





**Türkiyəli müğənni Hadisənin yeni eşqə yelkən açdığı iddia olunub.**

Axşam.az xəbər verir ki, ifaçının ”Qalatasaray”ın futbolçusu Mauro Lcardi ilə münasibətdə olduğu idda edilib. Aparıcı Ebru Şancının iddialarına görə, bu barədə məlumatı sözügedən komandanın oyunçularından birinin həyat yoldaşından öyrənib.

*Qeyd edək ki, tez-tez eşq həyatı ilə diqqət çəkən Hadisə bundan əvvəl Cənubi azərbaycanlı iş adamı Rza Zarrab və ötən il ailə qurub boşandığı Mehmet Dinçerlerlə gündəmdən düşmək bilmirdi.*

## Osmanlı yadigarı...

500 illik top mərmiləri bugünədək qorunub saxlanılır



**XVI yüzillikdə Osmanlı imperiyasının Anadoludakı ən önəmli silah istehsalı mərkəzlərindən olan Biləciyin Söyüdlü əyalətində o dövrə aid top mərmiləri bugünədək qorunub saxlanılır. Söyüdlüdə dəmirçilk geniş yayılıbmış. Dəmirçilər kürə ilə dəmir əridib silah düzəldirmiş.**

Burada Osmanlı ordusunun şanına şöhrət qatan, dünyanın ən güclü ordularını param-parça etmş sursatlar istehsal edilib. Onlar arasında top mərmiləri də var. Mərmilərin bəziləri bu gün də Söyüdlü muxtarlığında sərgilənir. Amma təkcə burada deyil. Bəzən yerli əhali tarla şumlayarkən, əkin sahələrində çalışarkən mərmilərə rast gəlirlər. Kəndlilərin üzə çıxardığı top mərmiləri muxtarlığa gətirilərək qorunur və nümayiş edilir. ”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, bu haqda Anadolu Agentliyinə Biləcik Şeyx Ədəbalı Universitetinin ədəbiyyat fakültəsinin tarix bölümünün müəllimi dosent doktor Rəfiq Arıkan məlumat verib. R.Arıkan deyib ki, Biləcik XVI yüzillikdə Osmanlı İmperiyasında silah-sursat istehsal edilən ərazi olub. Buradakı müəssisədə top mərmiləri, güllələr istehsal edilirmiş. Müəssisənin 700-ə qədər işçisi olub. Sultan Süleyman Qanuni dövründə işçilərin sayı artaraq 1700-ə çatıb. Bu say nəzərə alınmaqla müəssisənin silah istehsalının da artdığını söyləmək olar. 1565-ci ildə 30 min daş, 35 min dəmir güllə sifariş edildiyinə dair sənədlər var. Osmanlı sultanı Orxan Qazi dönəmində bu ərazi ”Küre-i Kebir Karyesi” kimi (böyük emalatxana, karyer) kimi tanınıb.

**Məlahət**

## Baş nazir yeni modeli bəyənib

5 dollarlıq əskinaslarda Çarlz əks olunmayacaq






**Kraliçanın ölümü çox şeyləri dəyişdi. Avstrailya hökuməti Böyük Britaniyaya meydan oxumağa başlayıb.**

İngiltərə Birləşmiş Krallığının kraliçası II Elizabeth vəfat etdikdən sonra Böyük Britaniyanın müstəmləkəsi olmuş ölkələrdə mərkəzdənqaçma meyilləri müşahidə edilməyə başlayıb. İngiltərə müstəmləkəsi olmuş Avstraliyada da bu hiss olunur. Avstraliyanın Baş naziri Entoni Abanesenin rəhbərlik etdiyi Sol İşçi Partiyası hökuməti yeni 5 dollarlıq əskinaslarda III Çarlzın deyil, yerli xalqın nümayəndələrinin əks olunmasına qərar verib. Yerli xalqın nümayəndələrinin əksi olan əskinas modeli baş nazir tərəfindən bəyənilib və buraxılmasna icazə də verilib. Bu qərarı ölkədə təpki ilə qarşılayanlar da var və onlar bu dəyişikliyi mərkəzdən yayınma kimi qymətləndirir. Avstraliya Mərkəzi Bankı da yeni 5 dollarlıq əskinazların çapına müsbət rəy verib. Bildirilir ki, hökumətin əskinasların üzərindəki fotonun dəyişdirilməsi qərarı avstraliyalıların mədəniyyəti və tarixini şərəfləndirir. Liberal Partiya lideri Peter Dutton isə dəyişikliyi ”dəlilik” adlandırıb. Yaşıl Partiya üzvləri isə dəyişikliyi dəstəkləyir və bunu ”müstəmləkə bağlarının qoparılması” hesab edirlər.

**Məlahət**